# ZƏNGƏZUR DƏHLİZİ MÜTLƏQ İNŞA EDİLƏCƏK



"Tramp marşrutu" ilə bağlı ortaya qoyulan pessimist yanaşmalar özünü doğrultmur. Əksinə, layihəyə maraq daha da artıb.

Dövlət katibi Marko Rubio bildirib ki, TRIPP Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin lövbəridir: "Biz indi bu işdə çox fəal iştirak edirik. Biz sözün əsl mənasında müqavilə imzaladıq və bu, Amerika şirkətlərinə özəl sektorun maraqlarına, Amerika maraqlarına, eləcə də Azərbaycan, Ermənistan və digər regional ölkələrin maraqlarına investisiya qoymağa imkan verəcək".

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

6 İYUN ŞƏNBƏ 2026 № 20 (4271) Qiyməti - 60 qəpik www.kaspi.az



## MİNİFUTBOL MİLLİMİZİN SLOVAKİYA ZƏFƏRİ

Dörd il ərzində ikinci Avropa çempionluğunu qazanan komandamız ötən il Bakıda keçirilən turnirdə dünya çempionu olmuşdu. Qazanılan qələbə böyük sevincə səbəb olub. Prezident İlham Əliyev də komandanı təbrik edib.

SƏHİFƏ 2-də



## ETİMADA SÖYKƏNƏN STRATEJİ MÜTTƏFİQLİK

Çin-Pakistan strateji tərəfdaşlığı XXI əsrin ən mühüm regional əməkdaşlıq modellərindən hesab olunur. İki ölkə arasında münasibətlər artıq beynəlxalq siyasətdə "dəmir qardaşlıq" kimi xarakterizə edilir.

SƏHİFƏ 6-da



## "SON ZƏNG" NEÇƏYƏ BAŞA GƏLİR?

Övladları orta məktəbi bitirən bir çox valideyn üçün "Son zəng" tədbiri həm də əlavə xərc deməkdir. Əvvəllər məzunlar qara şalvar, ağ köynək, qara ətək və bir neçə şəkillə kifayətlənirdisə, bu gün siyahı daha uzundur.

SƏHİFƏ 9-da

### DÜNYA LİDERLƏRİNİN POZİTİV AZƏRBAYCAN VURĞUSU

# BAKIDAN DÜNYAYA ENERJİ MESAJI




Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi" çərçivəsindəki çıxışı ölkəmizin dünyanın enerji təhlükəsizliyinin təminində artan rolu və strateji hədəflərini bir daha beynəlxalq aləmə nümayiş etdirdi.

**ENERJİ SƏHNƏSİNDƏ APARICI TƏDBİR**

Prezident İlham Əliyev bildirib ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Onun sözlərinə görə, dünya faydalı qazıntı olmadan yaşaya bilməz: "Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik".

**REYTİNQİMİZ İLDƏN-İLƏ ARTMAQDADIR**

Prezident qeyd edib ki, iqtisadi fəaliyyətimiz çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır: "Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir".

SƏHİFƏ 3-də

"Qara dəniz sahillərinə getmək asanlaşıb"

## QAFQAZIN TURİZM XƏRİTƏSİNDƏ HƏRƏKƏTLİLİK



Bakı-Tbilisi qatarlarının yenidən fəaliyyətə başlaması regionda turizm imkanlarına marağı yenidən gündəmə gətirib. Bu marşrut sərnişinlər üçün həm alternativ nəqliyyat vasitəsi, həm də yeni səyahət istiqamətləri baxımından diqqət çəkir. Son günlərdə sosial platformalarda turizm şirkətlərinin bu istiqamətdə paket turlar təklif etməsi də marağın artdığını göstərir.

SƏHİFƏ 8-də



## STRATEJİ SAZİŞLƏR, YENİ PERSPEKTİVLƏR

Bu həftə Bakıda keçirilən Enerji Həftəsi çərçivəsində imzalanan 7,5 milyard dollarlıq sazişlər paketi enerji təhlükəsizliyindən kritik minerallara, süni intellektdən beynəlxalq investisiyalara qədər geniş sahələri əhatə edir.

SƏHİFƏ 4-də



## RƏQƏMSAL ÖDƏNİŞLƏRİN YENİ MƏRHƏLƏSİ

Bankların təklif etdiyi virtual kartın digər kartlardan əsas fərqi, yalnız rəqəmsal formada mövcud olmasıdır. Bu kart fiziki daşıyıcıya malik deyil və bankların mobil tətbiqlərində hesab şəklində təqdim olunur.

SƏHİFƏ 7-də



## NƏŞRİYYAT SEKTORUNDA ƏDALƏT AXTARIŞI

Son vaxtlar naşirlərlə tərcüməçilər arasında davamlı olaraq yaşanan narazılıqlar bu sahədə ciddi problemlərin olduğunu göstərir. Amma tərəflər arasında müşahidə olunan fikir ayrılıqlarının həlli elə də asan görünmür.

SƏHİFƏ 15-də



Gəmiyə dron hücumu ilə bağlı XİN-dən açıqlama

SƏHİFƏ 2-də



Bakı Ətraf Mühit Gününə ev sahibliyi etdi

SƏHİFƏ 10-da



Silinən tarixçə, əsassız cərimələr

SƏHİFƏ 13-də



Rəsmi servis, yoxsa "tanış usta"?

SƏHİFƏ 14-də



Tarixin ən böyük mundialı

SƏHİFƏ 16-da

# MİNİFUTBOL MİLLİMİZİN SLOVAKİYA ZƏFƏRİ

Dörd il ərzində ikinci Avropa çempionluğunu qazanan komandamız keçən il Bakıda keçirilən turnirdə dünya çempionu olmuşdu. Qazanılan qələbə böyük sevincə səbəb olub. Prezident İlham Əliyev də komandanı təbrik edib.

Minifutbol üzrə Azərbaycan millisi Slovakiyada keçirilən Avropa çempionatının qalibi olub. Komandamız finalda Ukraynanı məğlub edib. “Tipos Arena”da keçirilən oyun 2:0 hesabı ilə bitib. Beləliklə, minifutbol millimiz ikiqat Avropa çempionu olub. Komanda daha əvvəl 2022-ci ildə titula sahib çıxmışdı. Xatırladaq ki, Azərbaycan millisi əsas vaxtı 1:1 hesabı ilə bitən yarımfinal görüşünün penaltilər seriyasında Serbiya seçməsini üstələyib - 3:1. F qrupunda Avstriya (1:0), İtaliya (3:0) və Fransanı (3:2) məğlub edən komanda 1/8 finalda Qazaxıstanı (3:2), 1/4 finalda isə Çexiyanı (5:2) məğlub edib.

Azərbaycan millisinin mükafatlandırılma mərasimində Avropa Minifutbol Federasiyasının prezidenti Peter Kralik və digər rəsmi şəxslər iştirak ediblər.

Minifutbol üzrə Azərbaycan millisinin üzvü Eşqin Tağıyev Avropa çempionatının ən yaxşı oyunçusu seçilib.

**PREZİDENT İLHAM ƏLİYEVDƏN TƏBRİK**

Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib. Bununla bağlı dövlət başçısının sosial şəbəkə hesablarında paylaşım edilib. “2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olmuş Azərbaycan minifutbol millisi ölkəmizin idman tarixinə daha bir parlaq səhifə yazaraq növbəti dəfə Avropa çempionu oldu. Bu qələbənin komanda idman növündə qazanılması ikiqat sevindiricidir. Komandamızı bu möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir, millimizə yeni-yeni uğurlar arzulayıram”, - paylaşımda qeyd olunub.






## “Belə çempionluq məni ikiqat sevindirir”

“Minifutbol üzrə Azərbaycan millisi Slovakiyada keçirilən Avropa çempionatında ağır qrafiklə oynayıb”. Bu barədə komandanın baş məşqçisi Elşad Quliyev bildirib. Mütəxəssis möhtəşəm turnir keçirdiklərini qeyd edib: “Təşkilatçıların əziyyəti danılmazdır. Xalqımızı və komandamı çempionluq münasibəti ilə təbrik edirəm. Ağır qrafiklə oynayırdıq, güclü rəqiblərlə üz-üzə gəldik. Bu isə kollektivi yordu. Finala yorğun çıxmışdıq. Oyunçuları möhtəşəm finalı başa vurduqları üçün xüsusi təbrik edirəm”.

E.Quliyev Ukrayna millisinin də yaxşı heyətinin olduğunu əlavə edib: “Ukrayna millisinin yaxşı oyunçuları var. Onlar da bu gün pis oynamadılar. Biz yarışa gəlməmişdən əvvəl böyük işlər görmüşdük. Avropa çempionatının çətin keçəcəyini bilirdik. Belə güclü komandalarla oynadıqdan sonra finala çıxacağımızı hesablamamışdıq. Belə çempionluq məni ikiqat sevindirir. İlk çempionluqda daha asan komandalarla oynayırdıq”.

## Ölkə idmanı və futbolu üçün böyük hadisə

Azərbaycan Minifutbol Federasiyasının (AMF) prezidenti Orxan Məmmədov bildirib ki, millimizin ikinci dəfə Avropa çempionu olması ölkə idmanı və futbolu üçün böyük hadisədir: “Hamını qələbə münasibəti ilə təbrik edirəm. Azərbaycanda və burada olan azarkeşləri, idman və futbol ictimaiyyətini təbrik edirəm. Tarixi qələbədir. Azarkeşlər bizə möhtəşəm dəstək olurdular. Buradakı səfirliyimizə minnətdaram. İlk gündən çox dəstək oldular. Yenidən Avropa çempionu olmaq böyük qürurdur. Azərbaycan idmanı, futbolu üçün böyük hadisədir”.

O.Məmmədov komandanın 2022-ci ildə də Avropa çempionatında qızıl medal qazandığını xatırladıb: “Ötən il Bakıda keçirilən dünya çempionatında birinci yeri tutduq. Artıq komandalar bizi başqa cür qəbul edirdilər. Hamı bizə qarşı başqa cür oynayırdı. Bütün futbolçulara, məşqçilər heyətinə, federasiyada çalışan əməkdaşlarımıza təşəkkür edirəm. Həqiqətən böyük hadisədir. İkinci dəfə Avropa çempionu olmaq böyük qürurdur”.

AMF prezidenti dörd il ərzində iki Avropa, bir dünya çempionluğu əldə etmələrinin səbəbini açıqlayıb: “Federasiya yarandığı gündən lazım olan futbolçuları tapdıq. Yavaş-yavaş komandanın əsas heyətini formalaşdırdıq. Bu uğurlarda baş məşqçinin də böyük rolu var. Elşad Quliyev neçə ildir ki, komandaya rəhbərlik edir. Onun zəhməti nəticəsində belə kollektiv yığmışıq. Bu onu göstərir ki, Azərbaycanda yaxşı idmançılar, futbolçular var. Sadəcə, çalışmaq lazımdır”.



## Gəmiyə dron hücumu ilə bağlı XİN-dən açıqlama

“Heyətində 25 nəfər Azərbaycan vətəndaşının olduğu iki xarici yük gəmisinə dron hücumları həyata keçirilib. Gəmilər Azərbaycan dövlətinə məxsus deyil”. Bu fikri Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə deyib. O bildirib ki, hücum nəticəsində 5 nəfər vətəndaşımızın həlak olduğu, 3 nəfərin isə yaralandığı barədə Rusiya tərəfindən müvafiq məlumat daxil olub. Yaralılar Yeysk şəhər xəstəxanasına yerləşdiriliblər. “Hazırda məsələ ilə bağlı XİN tərəfindən aidiyyəti dövlət qurumlarımız, ölkəmizin diplomatik nümayəndəlikləri, habelə müvafiq ölkələrin səlahiyyətli qurumları ilə əlaqələndirmə işləri həyata keçirilir. Rusiyadakı səfirliyimizin bir neçə nəfər əməkdaşı hadisə yerinə yola düşüb. Vətəndaşlarımızın vəziyyəti, onların ölkəyə qaytarılması və zəruri konsulluq dəstəyinin göstərilməsi məsələləri diqqətdə saxlanılır”, - deyə o əlavə edib.




## CNN-in iddiaları kobud informasiya manipulyasiyasıdır

“İyunun 5-də CNN özünün uydurduğu “mənbələrə” istinad edərək İsrailin İranla apardığı müharibə zamanı guya Azərbaycan ərazisindən istifadə etməsi ilə bağlı iddiaların yer aldığı material yayımlayıb. Dünyanın tanınmış transmilli media şirkətinin heç bir fakta istinad etmədən açıq-aşkar feyk məlumat tirajlamasını məqsədli şəkildə həyata keçirilmiş kobud informasiya manipulyasiyası hesab edirik”. Bu fikirlər Medianın İnkişafı Agentliyinin açıqlamasında yer alıb. Bildirilib ki, dezinformasiya yaymaqla CNN özünün reputasiyasını ləkələməklə yanaşı, həm də hibrid müharibənin propaqanda aləti kimi çıxış edib. Qeyd olunur ki, CNN-in yaydığı dezinformasiya Azərbaycana və bütünlükdə regional təhlükəsizliyə qarşı yönəlmiş siyasi təxribatdır. Bu məlumatın yayılması regional sabitliyə və dövlətlərarası münasibətlərə zərbə vurmağa, regionda gərginlik yaratmağa hesablanıb. Dəfələrlə ən yüksək rəsmi səviyyədə bəyan edilib ki, Azərbaycan ərazisindən heç bir halda İrana qarşı istifadə olunmayıb.

# BAKIDAN DÜNYAYA ENERJİ MESAJI

Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi" çərçivəsindəki çıxışı ölkəmizin dünyanın enerji təhlükəsizliyinin təminində artan rolu və strateji hədəflərini bir daha beynəlxalq aləmə nümayiş etdirdi.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




"Bakı Enerji Həftəsi" bu dəfə də özünün aktuallığı, yeniliyi və qlobal enerji böhranının yaşandığı dövrdə mövcud çağırışlarla bağlı həll yollarının arandığı aktual platforma olaraq yadda qaldı. Prezident İlham Əliyevin 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimindəki çıxışı zamanı ölkəmizin bu prosesdə artan rolu və strateji hədəfləri bir daha dünyanın diqqətinə çatdırıldı.

**"AZƏRBAYCAN ÇOX BARİZ NÜMUNƏDİR"**

Dövlət başçısı bildirib ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Onun sözlərinə görə, dünya faydalı qazıntı olmadan yaşaya bilməz: "Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!"

Prezident İlham Əliyev qeyd edib ki, ölkələr neft və qazın mövcud olmasına görə günahlandırılmalı deyil, çünki neft və qaz digər adi əmtəə kimidir. Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı inkişafı üçün istifadə edir: "Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, yaşıl gündəlik məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız".

## "BİZİM ARTIQ İNVESTİSİYA DƏRƏCƏLİ REYTİNQİMİZ VAR"

Prezident qeyd edib ki, bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır: "Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı".

**"BU GÜN ONLARIN SAYI 16-DIR"**

Dövlət başçısı dünyada enerji təhlükəsizliyinin təmini məsələsinə də toxunub: "Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada - "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq".



Prezident qeyd edib ki, mövcud qaz ehtiyatlarımız ən azı növbəti yüz il ərzində həm ölkəmizin, həm də tərəfdaşlarımızın tələbatını ödəməyə kifayət edəcək.

**YÜKSƏKSƏVİYYƏLİ DİPLOMATİK FƏALİYYƏT**

Prezident qeyd edib ki, bütün bu nailiyyətlər yüksəksəviyyəli diplomatik fəaliyyət nəticəsində mümkün olub. Çünki Azərbaycan dənizə birbaşa çıxışı olmayan ölkədir: "Bizim dünya okeanlarına çıxışımız yoxdur. Bu səbəbdən enerji resurslarımızı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçmək zərurəti yaranır. Buna nail olmaq üçün isə yalnız qonşularınızla deyil, qonşularınızın qonşuları ilə də yaxşı münasibətlər qurmalısınız. Biz buna nail olmuşuq".

**DÜNYA LİDERLƏRİNİN AZƏRBAYCAN VURĞUSU**

Açılış mərasimində dünya liderlərinin məktublarında ölkəmizin artan rolu, qlobal müstəvidəki əvəzedilməz fəaliyyətinə xüsusi vurğu edilməsi də diqqət çəkən məqamlardan idi.

ABŞ Prezidenti Donald Tramp bildirib ki, Azərbaycan enerji təhlükəsizliyinin irəliyə doğru aparılmasında regionda çox mühüm tərəfdaşdır. Azərbaycan, həmçinin müasir neft sənayesinin beşiyidir. "Birləşmiş Ştatlar Azərbaycanın neft-qaz sənayesinin çox böyük tərəfdarıdır və mən qətiyyətlə inanıram ki, qlobal enerji təhlükəsizliyi sahəsində əsaslı tərəfdaşlığımızın əhəmiyyəti gələcək illərdə yalnız artacaqdır", - Donald Tramp məktubunda qeyd edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın məktubunda deyilir: "Regionumuzda yaşanan proseslər Azərbaycanla birlikdə enerji sahəsində atdığımız addımların nə qədər düzgün olduğunu göstərir. Bölgəmiz üçün xəyal kimi görünən bir çox meqalayihəni Azərbaycanla birlikdə uğurla həyata keçirməkdə davam edirik".

# STRATEJİ SAZİŞLƏR, YENİ PERSPEKTİVLƏR

Bakı Enerji Həftəsində imzalanan 7,5 milyard dollarlıq sazişlər paketi enerji təhlükəsizliyindən kritik minerallara, süni intellektdən beynəlxalq investisiyalara qədər geniş sahələri əhatə edir. Razılaşmalar Azərbaycanın qlobal iqtisadi sistemdə mövqeyinin güclənməsi baxımından yeni imkanlar yaradır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İyunun 1-3-də keçirilən Bakı Enerji Həftəsi bu il də qlobal enerji, maliyyə və texnologiya sektorlarının aparıcı nümayəndələrini Bakıda bir araya gətirib. Tədbir çərçivəsində ilk dəfə təşkil olunan Azərbaycan-ABŞ İqtisadi Dialoqu isə iki ölkə arasında iqtisadi əməkdaşlığın yeni mərhələyə keçdiyini nümayiş etdirib. Forum zamanı Azərbaycan və ABŞ, eləcə də SOCAR, İqtisadiyyat Nazirliyi və bir sıra beynəlxalq şirkətlər arasında enerji, investisiya, maliyyə, texnologiya, süni intellekt və kritik minerallar sahələrini əhatə edən, ümumi dəyəri 7,5 milyard dollar olan sənədlər paketi imzalanıb. Razılaşmalar arasında kritik minerallar və nadir torpaq elementlərinin hasilatı və emalı üzrə əməkdaşlıq, "Abşeron" yatağından hasil olunacaq qazın uzunmüddətli əsasda Türkiyəyə satışı, TANAP layihəsinə investisiya dəstəyi, Serbiyada enerji infrastrukturunun qurulması, neft-qaz yataqlarının birgə araşdırılması, enerji layihələrinin maliyyələşdirilməsi, eləcə də süni intellekt və rəqəmsal texnologiyalar sahəsində tərəfdaşlıqlar yer alıb. Bununla yanaşı, SOCAR-ın "Shell", "Chevron", "JP Morgan", "Oracle" və "Lummus Technology" kimi qlobal şirkətlərlə imzaladığı sənədlər enerji və texnologiya sahələrində əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirib. Bəs bu razılaşmalar Azərbaycanın enerji sektoru və iqtisadiyyatı üçün hansı perspektivlər vəd edir?



## "Enerji sektorunun səmərəliliyinin yüksəlməsinə təkan verəcək"

Millət vəkili Vüqar Bayramovun sözlərinə görə, 1-ci Azərbaycan-ABŞ iqtisadi dialoqu, iki ölkə arasında strateji tərəfdaşlığın yeni və daha dərin mərhələyə qədəm qoyduğunu nümayiş etdirir: "Bu dialoq çərçivəsində imzalanan müqavilələr iqtisadi əməkdaşlığın miqyasının və keyfiyyətinin nə qədər genişləndiyini göstərir. Xüsusilə mineral ehtiyatların işlənməsi sahəsində tərəflərin nümayiş etdirdiyi sıx əməkdaşlıq iradəsi, Azərbaycanın enerji resurslarının qlobal bazarlara çıxarılması və idarə olunması strategiyasında ABŞ-nin rolunun möhkəmləndiyinə işarə edir".

V.Bayramovun fikrincə, bu sənədlərin ən mühüm məqamı sadəcə maliyyə vəsaitlərinin cəlbi deyil, həm də ABŞ-nin qabaqcıl texnologiya və innovasiyalarının, eləcə də idarəetmə təcrübəsinin ölkə iqtisadiyyatına inteqrasiya olunmasıdır: "İnvestisiya və texnologiya transferinin birləşməsi, Azərbaycan iqtisadiyyatının texnoloji baxımdan yenilənməsi üçün zəruri olan innovativ mühiti formalaşdırır. Nəticə etibarilə, bu proses dövlət gəlirlərinin artmasına, enerji sektorunun səmərəliliyinin yüksəlməsinə və iqtisadiyyatın modernləşməsinə birbaşa təkan verəcək".

### "GƏLƏCƏKDƏ DİGƏR SAHƏLƏRƏ DƏ MÜSBƏT TƏSİR GÖSTƏRƏCƏK"

Deputat bildirdi ki, bu cür genişmiqyaslı sazişlər Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyasını sürətləndirən prosesin tərkib hissəsidir: "Xüsusilə, kritik minerallar sahəsində imzalanan çərçivə sənədləri, gələcək onilliklərdə rəqabətin mərkəzində dayanacaq bu resurslar üzrə Azərbaycanın mövqeyini gücləndirir. Həmçinin SOCAR-ın "Shell", "Chevron" və "Oracle" kimi qlobal nəhənglərlə qurduğu tərəfdaşlıqlar, milli şirkətin xarici kapital bazarlarında və texnoloji sahələrdəki imkanlarını genişləndirərək, onun beynəlxalq brend kimi formalaşmasını dəstəkləyir".

V.Bayramov qeyd etdi ki, bu sənədlər hələlik əsasən enerji və əlaqədar sektorlara yönəlsə də, yaradılan texnoloji infrastruktur gələcəkdə digər sahələrə də müsbət təsir göstərəcək: "İmzalanan sənədlər, həmçinin Azərbaycanın enerji təhlükəsizliyi məsələlərində ABŞ ilə bərabərhüquqlu və strateji tərəfdaş kimi fəaliyyət göstərmək potensialını təsdiqləyir. Qısası, Bakı Enerji Forumunda atılan bu addımlar Azərbaycanın enerji siyasətində modernləşmə, investisiya mühitində isə yüksək texnoloji standarta keçid dövrünü xarakterizə edir".




Foto: Firudin Səlimov - Global Photostock

## "Azərbaycan qlobal enerji bazarında strateji oyunçuya çevrilir"

İqtisadçı Rəşad Həsənov da düşünür ki, Bakı Enerji Həftəsi çərçivəsində imzalanan çoxşaxəli müqavilə, razılaşma və memorandumlar ölkənin enerji strategiyasında yeni bir mərhələni xarakterizə edir: "İmzalanan sənədlər yalnız karbohidrogen resurslarının hasilatı ilə məhdudlaşmır, buraya kritik mineralların işlənməsi, xarici enerji infrastrukturunun yaradılması, tranzit-nəqliyyat dəhlizlərinin formalaşdırılması və mühüm maliyyə mexanizmlərinin tətbiqi kimi qlobal əhəmiyyətli layihələr daxildir. Enerji forumları Azərbaycanın daxili və xarici siyasətində uzunmüddətli əməkdaşlıq platforması kimi çıxış edir. Ölkənin müstəqillik dövründən formalaşdırdığı enerji diplomatiyası, xüsusilə son onillikdə SOCAR-ın xarici bazarlarda aktiv investor qismində çıxış etməsi ilə yeni keyfiyyət qazanıb. Hazırda SOCAR-ın fəaliyyətinin əhəmiyyətli bir hissəsinin ölkə xaricində cəmləşməsi, Azərbaycanın qlobal enerji xəritəsindəki payını və təsir imkanlarını artırır. Bu strategiya Azərbaycanın beynəlxalq enerji bazarlarında sadəcə təchizatçı deyil, həm də strateji oyunçu kimi mövqeyini möhkəmləndirir".

### "İQTİSADİ DAYANIQLILIQ DAHA YÜKSƏK STANDARTLARA ÇATACAQ"

R.Həsənov bildirdi ki, qlobal nəhənglərlə qurulan tərəfdaşlıqlar həm də yüksək texnologiya, süni intellekt həlləri və modern idarəetmə təcrübəsi gətirir: "Bu əməkdaşlıqlar SOCAR-ın xarici bazarlardakı rəqabət qabiliyyətini gücləndirməklə yanaşı, həm də ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirir. Texnoloji transfer, xüsusilə süni intellektin infrastruktura tətbiqi, Azərbaycanın enerji sənayesinin rəqəmsallaşması və daha səmərəli resurs idarəçiliyi üçün həlledici addımdır".




İqtisadçının sözlərinə görə, imzalanan sazişlər əsasən enerji və kapitalın xaricə yönləndirilməsinə xidmət edir. Lakin bu prosesləri qeyri-neft sektorunun inkişafı üçün birbaşa investisiya axını kimi dəyərləndirmək hələlik erkəndir: "Buna baxmayaraq, kritik minerallar üzrə atılan addımlar strateji əhəmiyyət daşıyır. Qlobal iqtisadiyyatda kritik mineralların növbəti onilliklərin əsas rəqabət predmeti olacağını nəzərə alsaq, bu istiqamətdəki əməkdaşlıq Azərbaycanın resurs əsaslı valyuta gəlirlərinin gələcəkdə daha davamlı olmasına mühüm zəmin yaradır. Bu genişmiqyaslı razılaşmalar paketi, Azərbaycanın enerji sektorunda uzunmüddətli inkişafı təmin etmək üçün qlobal şirkətlərlə əməkdaşlıqdan maksimum fayda götürmək əzmini nümayiş etdirir. İmzalanan sənədlərin tətbiqi iqtisadi dayanıqlılıq yeni, daha yüksək beynəlxalq standartlara çatacaq".

# ZƏNGƏZUR DƏHLİZİ MÜTLƏQ İNŞA EDİLƏCƏK

“Tramp marşrutu” ilə bağlı ortaya qoyulan pessimist yanaşmalar özünü doğrultmur. Əksinə, bölgədə cərəyan edən sürətli geosiyasi proseslər fonunda Zəngəzur dəhlizinə maraq daha da artıb.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində mühüm proseslər yaşanmaqdadır. Ermənistanda seçkilər, İranla ABŞ arasında qarşıdurmanın kəskinləşməsi, Rusiyanın təzyiqləri artırması fonunda “Tramp marşrutu” (TRIPP) ilə bağlı ortaya qoyulan pessimist yanaşmalar özünü doğrultmur. Əksinə, bölgədə cərəyan edən sürətli geosiyasi proseslər fonunda Zəngəzur dəhlizinə maraq daha da artıb.

**BU ƏMİNLİK ƏSLİNDƏ HEÇ DƏ ƏSASSIZ DEYİL**

Azərbaycan da layihənin uğurla reallaşacağından əmindir. Prezident İlham Əliyev 31-ci “Baku Energy Forum”un rəsmi açılış mərasimində çıxışı zamanı bu məsələyə də toxunub: “Dəmir yolu və avtomobil yolu infrastrukturuna investisiya qoymaqla nəqliyyat üçün yeni dəhlizlər açırıq”.

Şərq-Qərb Dəhlizinin uğurla fəaliyyət göstərdiyini xatırladan dövlət başçısı qeyd edib: “Şərq-Qərb dəhlizinin digər bir qolu olacaq Zəngəzur dəhlizi avqustun 8-də (2025-ci il – red.) Ağ Evdə ABŞ Prezidenti, Ermənistanın Baş naziri və mənim aramda imzalanmış sənədə əsasən mütləq inşa ediləcək”.

Bu əminlik əslində heç də əsassız deyil. Vaşinqtonun dəhlizin reallaşdırılması ilə bağlı ardıcıl addımları bu qənaətə gəlməyə əsas verir.

Bugünlərdə Azərbaycan və ABŞ arasında Orta Dəhlizin genişləndirilməsi, Zəngəzur dəhlizinin inkişafı istiqamətində görülən və planlaşdırılan işlər, bu proseslərdə ABŞ şirkətlərinin iştirak perspektivləri müzakirə edilib. Bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev “X” sosial şəbəkəsindəki hesabında bildirib. Müzakirələr R.Nəbiyevin ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə baş tutub.

## Marko Rubio: “Sülh müqaviləsinin lövbəridir”

Zəngəzur dəhlizi məsələsi ABŞ daxilində, xüsusilə Senatda da ciddi maraq oyadıb. Dövlət katibi Marko Rubio Senatın Xarici Əlaqələr Komitəsində keçirilən dinləmələr zamanı bildirib ki, TRIPP layihəsi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin lövbəridir: “Biz indi bu işdə çox fəal iştirak edirik. Biz sözün əsl mənasında müqavilə imzaladıq və bu, Amerika şirkətlərinə özəl sektorun maraqlarına, Amerika maraqlarına, eləcə də Azərbaycan, Ermənistan və digər regional ölkələrin maraqlarına investisiya qoymağa imkan verəcək...”

Dinləmələr zamanı ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deyns Mərkəzi Asiya ölkələri ilə münasibətlərə qoyulan Cekson-Venik ticarət məhdudiyyətlərini xatırladıb. O bildirib ki, C5 (Mərkəzi Asiya ölkələri) ilə əlaqələrin gücləndirilməsində əsas maneəyə çevrilən bu məsələ Azərbaycanı da narahat edir. Məhdudiyyətlərin aradan qaldırılması ABŞ-nin Mərkəzi Asiya ilə münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərəcək. “Biz bunun aradan qaldırılmasını istərdik. Düşünürəm ki, bunu gündəmə gətirmək üçün sədr və komitə üzvləri ilə danışmalısınız”, - deyə Rubio cavab verib.

**ERMƏNİSTAN VƏ ABŞ ARASINDA ÇƏRÇİVƏ SAZİŞİ İMZALANI**

Xatırladaq ki, bir müddət əvvəl ABŞ dövlət katibinin Ermənistana qəfil səfəri və İrəvanda imzalanan sənədlər də Vaşinqtonun TRIPP layihəsinə verdiyi önəmin göstəricisi kimi qymətləndirilir.

Səfər zamanı TRIPP layihəsi çərçivəsində Ermənistan və ABŞ arasında strateji tərəfdaşlıq haqqında çərçivə sazişi və iki ölkə arasında mineralların və nadir qazıntıların tədarükünün təmin edilməsi üzrə çərçivə planı imzalanıb. M.Rubio mayın 26-da Ermənistan XİN başçısı Ararat Mirzoyanla keçirdiyi mətbuat konfransında bildirib ki, TRIPP Cənubi Qafqaz regionunda sülh və firavanlığın təmin edilməsinə yönəlib. Bir neçə gün əvvəl isə Ararat Mirzoyan Ermənistan və ABŞ arasında TRIPP layihəsi üzrə çərçivə sazişinin imzalandığını açıqlayıb.



Marko Rubio

## Rusiyanın iddialarına Vaşinqtondan cavab

Xatırladaq ki, istər Ermənistandakı revanşistlər, istərsə də Rusiyanın siyasi dairələri Zəngəzur dəhlizi ilə bağlı İrəvanın layihənin reallaşdırılacağı ərazilərdə suverenliyini itirəcəyini iddia edirlər. Bu səbəbdən, hər vəchlə Azərbaycan və Ermənistan arasında sülhün əsas şərtlərindən biri sayılan TRIPP layihəsinin həyata keçirilməsini əngəlləməyə çalışırlar. Bu iddialara ABŞ-dən cavab da özünü çox gözlətməyib.

Kapitolidə keçirilən dinləmələr zamanı dövlət katibi M.Rubio bəyan edib ki, Rusiya Cənubi Qafqazda ABŞ-nin mövcudluğunun güclənməsinə mənfi yanaşır. “Həmçinin qeyd etmək istərdim və mənə elə gəlir ki, bu, açıq mənbələrdən kifayət qədər yaxşı məlumdur. Rusiya region ölkələri ilə qarşılıqlı əlaqələrimizin fəallaşmasından heç də məmnun deyil”, - o qeyd edib. Rubionun sözlərinə görə, Moskva Vaşinqton və İrəvanın artan əməkdaşlığı fonunda Ermənistandakı hazırkı hakimiyyətin seçkilərdə uduzmasını üstün tutardı. O vurğulayıb ki, ABŞ Ermənistanın suverenliyinə qəsd etmək niyyətində deyil və onun xarici siyasət qərarlarına qarışmır. “Aydın olsun deyə: biz Ermənistanın suverenliyinə qəsd etmək fikrində deyilik. Onlardan digər ölkələrlə dostluq etməmələrini xahiş etmirik. Biz sadəcə onlarla təkcə sülhə əsaslanmayan münasibətlərə malik olmaq istəyirik. Sülh vacibdir, lakin bu, yalnız başlanğıcdır”, - Rubio deyib.

Göründüyü kimi, artıq proses geridönməz mahiyyət daşımaqdadır. Ən azından qarşıdakı iki il ərzində Zəngəzur dəhlizi düyününün tamamilə çözüləcəyini proqnozlaşdırmağa ciddi əsaslar var.

# ETİMADA SÖYKƏNƏN STRATEJİ MÜTTƏFİQLİK

Çin və Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq XXI əsrin ən mühüm regional əməkdaşlıq modellərindən biri hesab olunur. İki ölkə arasında münasibətlər artıq beynəlxalq siyasətdə "dəmir qardaşlıq" və "hər cür şəraitdə strateji tərəfdaşlıq" kimi xarakterizə edilir.





AZƏR NURİYEV

Hindistanla yaşadığı gərginlik fonunda Pakistanın qüdrətli strateji müttəfiqi formalaşıb. Rəsmi İslamabad qonşu Çinlə münasibətləri inkişaf etdirir. Ölkələr arasında qarşılıqlı səfərlər artıb, Pekin açıq və ya dolayı şəkildə İslamabada dəstək verir. İki ölkə arasında münasibətlər artıq beynəlxalq siyasətdə "dəmir qardaşlıq" və "hər cür şəraitdə strateji tərəfdaşlıq" kimi xarakterizə olunur. Son illərdəki qlobal geosiyasi dəyişikliklər, regional təhlükəsizlik problemləri və iqtisadi maraqlar bu əməkdaşlığın daha da dərinləşməsinə səbəb olub.

### ŞAHBAZ ŞƏRİFDƏN ÖNƏMLİ AÇIQLAMALAR

Pakistan Baş naziri Şahbaz Şərifin Çinə səfəri, aparılan müzakirələr və əldə olunan razılaşmalar da əməkdaşlığın pik həddə olduğunu təsdiqləyib. Ş.Şərif bəyan edib ki, ÇXR ilə münasibətlərin inkişafı Pakistanın xarici siyasətinin təməl daşıdır. "Pakistan tərəfi vahid Çin prinsipinə dönmədən riayət edir, Tayvan, Sintsyan və dəniz məsələləri daxil olmaqla, Çin tərəfinin əsas maraqlarına toxunan məsələlərdə onun ədalətli mövqeyini qətiyyətlə dəstəkləyir", - deyə Baş nazir vurğulayıb. Ş.Şərif Çin müəssisələrini Pakistana investisiya qoymağa və biznes qurmağa dəvət edib. "Pakistan Çinin irəli sürdüyü dörd qlobal təşəbbüsü dəstəkləyir. Regionda və bütövlükdə dünyada sülhə, sabitliyə, inkişafa töhfə vermək üçün ÇXR ilə sıx çoxtərəfli kommunikasiya və qarşılıqlı əlaqə qurmaq arzusundadır", - deyə Baş nazir vurğulayıb.

## İLLƏRDİR FORMALAŞMIŞ BİRGƏ MARAQLAR

İki ölkə arasında keçirilən yüksək səviyyəli görüşlər Pekin və İslamabadın münasibətləri yeni mərhələyə daşımaq niyyətində olduğunu göstərir. Hər iki ölkə onilliklərdir ki, təhlükəsizlik, müdafiə sənayesi və iqtisadi sahələrdə sıx əməkdaşlıq edir. Xüsusilə Çin-Pakistan İqtisadi Dəhlizi (CPEC) Pekinin "Bir Kəmər, Bir Yol" təşəbbüsünün ən mühüm elementlərindən biri hesab olunur. Bu layihə vasitəsilə Çin Ərəb dənizinə çıxış əldə edir və enerji marşrutlarını diversifikasiya etmək imkanı qazanır. Pekinin Pakistanı dəstəkləməsinin digər mühüm səbəbi Hindistanla yaşadığı geosiyasi rəqabətdir.

### XXI ƏSRİN ƏN MÜHÜM REGİONAL ƏMƏKDAŞLIQ MODELİ

Nəticə etibarilə, Çin və Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq XXI əsrin ən mühüm regional əməkdaşlıq modellərindən biri hesab olunur. İqtisadi layihələr, təhlükəsizlik sahəsində koordinasiya və beynəlxalq məsələlərdə qarşılıqlı dəstək bu münasibətləri daha da möhkəmləndirir və gələcək illərdə əməkdaşlığın yeni istiqamətlər üzrə genişlənəcəyini göstərir.

Son dövrlərdə Çin rəhbərliyi Pakistanla münasibətləri "sarsılmaz" və "hər şəraitə uyğun strateji tərəfdaşlıq" kimi qiymətləndirib. Çin Sədri Si Cinpin Ş.Şərif ilə görüşündə də iki ölkə arasında əməkdaşlığın daha da genişləndiriləcəyini bəyan edib.

Hərbi sahədə əməkdaşlıq isə münasibətlərin ən mühüm istiqamətlərindən biridir. Son illərdə Pakistan ordusunun istifadə etdiyi silah sistemlərinin böyük hissəsi Çin istehsalıdır. Mətbuatda yayılan məlumatlara görə, Çin ötən il Hindistan-Pakistan qarşıdurması zamanı Pakistan Hərbi Hava Qüvvələrinə texniki dəstək göstərdiyini ilk dəfə rəsmi şəkildə təsdiqləyib. Çin istehsalı olan "J-10CE" qırıcılarının və digər hərbi texnologiyaların bu qarşıdurmada istifadə edildiyi bildirilib.



## KƏŞMİR MƏSƏLƏSİ YAXINLAŞMANIN ƏSAS FAKTORU KİMİ

Kəşmir məsələsi də Pekin-İslamabad yaxınlaşmasının əsas faktorlarından biridir. Hazırda toplar sussa da, geosiyasi xarakterli ziddiyyətlər, xüsusilə Kəşmirin kimə məxsus olması barədə mübahisə hələ həll olunmayıb. Pekin bu tarixi münaqişədə də Pakistanın tərəfini tutur. Düzdür, Çin öz mövqeyini birbaşa deyil, dolayı formada ifadə edir. İki dövlətin liderlərinin birgə bəyanatında Çin tərəfi Kəşmir məsələsi üzrə prinsipial mövqeyini təsdiq edərək qeyd edib ki, bu məsələ "tarixin mirası"dır və BMT Nizamnaməsinə, Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq sülh yolu ilə həll edilməlidir.

Bu mövqe Hindistan tərəfindən etirazla qarşılanıb və Yeni Delhi Kəşmirin ölkənin ayrılmaz hissəsi olduğunu bir daha bəyan edib. Bununla yanaşı, Çin rəsmi bəyanatlarında regionda müharibənin genişlənməsinin əleyhinə olduğunu və tərəfləri dialoqa çağırdığını bildirir. Pekin nüvə silahına malik iki qonşu dövlət arasında genişmiqyaslı müharibənin bütün region üçün təhlükəli nəticələr doğura biləcəyini anlayır. Buna görə də Çin bir tərəfdən Pakistanla strateji əməkdaşlığı gücləndirir, digər tərəfdən isə gərginliyin nəzarətdən çıxmamasına çalışır.

Nəticə etibarilə, Çin-Pakistan strateji əməkdaşlığı Cənubi Asiyanın geosiyasi balansına təsir edən ən mühüm tərəfdaşlıqlardan biridir. İqtisadi, hərbi və diplomatik sahələrdə dərinləşən bu əməkdaşlıq Pakistanın regional mövqeyini gücləndirir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

AZƏRBAYCANDA VİRTUAL KARTLARIN POPULYARLIĞI GETDİKCƏ ARTIR

# RƏQƏMSAL ÖDƏNİŞLƏRİN NÖVBƏTİ MƏRHƏLƏSİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Virtual kartın digər kartlardan əsas fərqi, yalnız rəqəmsal formada mövcud olmasıdır. Bu kart fiziki daşıyıcıya malik deyil və bankların mobil tətbiqlərində hesab şəklində təqdim olunur.

Son illərdə qlobal maliyyə sistemində müşahidə olunan dəyişikliklərdən biri də virtual kartların sürətlə yayılmasıdır. Rəqəmsallaşmanın artması, e-ticarətin genişlənməsi və istifadəçilərin təhlükəsizliklə bağlı həssaslığının yüksəlməsi bu aləti ənənəvi bank kartlarına ciddi alternativə çevirib. Ölkəmizdə də virtual kartların populyarlığı artır. 2026-cı il yanvarın 1-nə ölkədə bu kartların sayı 2,3 milyon ədəd olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 24,6% çoxdur. Mərkəzi Bankın məlumatına görə, dövriyyədə olan ödəniş kartlarının 10,7%-i virtual kartlardan ibarətdir. Maraqlıdır, virtual kartların üstünlükləri nələrdir?

### "OĞURLANMA VƏ İTİRİLMƏ RİSKİ YOXDUR"

Bank eksperti Emin Kərimov deyir ki, virtual kartın digər kartlardan əsas fərqi, yalnız rəqəmsal formada mövcud olmasıdır. Bu kart fiziki daşıyıcıya malik deyil və bankların mobil tətbiqlərində hesab şəklində təqdim olunur: "Virtual kartların əsas üstünlüklərindən biri onların fiziki olaraq oğurlanması və ya itirilməsi riskinin olmamasıdır. Çünki kart yalnız virtual mühitdə mövcuddur. Bununla yanaşı, təhlükəsizlik qaydaları və mühafizə mexanizmləri adi bank kartlarında olduğu kimi bu kartlara da tətbiq edilir. Funksionallıq baxımından virtual kartlar digər kartlarla demək olar ki, eyni imkanlara malikdir və onunla qanunvericiliyə uyğun olaraq əksər əməliyyatları həyata keçirmək mümkündür. Yeganə fərq əməkhaqqı əməliyyatları ilə bağlı müəyyən məhdudiyyətlərin olmasıdır. Bu da əməkhaqqı kartlarının adətən fiziki və sifariş əsasında təqdim edilməsi ilə bağlıdır. Eyni zamanda, virtual kartlardan elektron cüzdan kimi də istifadə edilə bilər. Hətta gələcəkdə bu kartlara taksit (hissə-hissə ödəniş) funksiyasının əlavə olunması da mümkündür".

### "MƏQSƏD İSTİFADƏÇİ RAHATLIĞINI TƏMİN ETMƏKDİR"

Mütəxəssis bildirir ki, virtual kartlar pandemiya dövründə daha da aktuallaşıb: "Həmin dövrdə insanlar banklara fiziki olaraq müraciət edə bilmədiyi üçün məsafədən xidmət imkanları genişləndirildi və müştərilərə filiala getmədən virtual kart açmaq imkanı təqdim olundu. Bu kartların əsas məqsədi istifadəçi rahatlığını təmin etməkdir. İstifadəçi evdən çıxmadan, mobil tətbiq vasitəsilə bir neçə toxunuşla kart yarada və dərhal istifadə edə bilir. Kartlardan həm yerli, həm də xarici əməliyyatlarda, o cümlədən QR kod vasitəsilə ödənişlərdə istifadə etmək mümkündür".




## Əsas açar, yoxsa idarə olunan açar?

Bank eksperti İsmayıl Məmmədov deyir ki, virtual kart tokenizasiya texnologiyası əsasında yaradılan, fiziki daşıyıcısı olmayan, lakin EMV (kartlarla ödənişlərin təhlükəsizliyini təmin edən beynəlxalq standartlardır) standartlarına uyğun əməliyyatlar aparmağa imkan verən rəqəmsal ödəniş alətidir: "Ənənəvi plastik kart isə istifadəçinin əsas hesabını təmsil edən "Primary Account Number" (PAN) əsasında fəaliyyət göstərir və POS-terminallar, ATM-lər, həmçinin onlayn ödənişlər üçün istifadə olunur. Bu kartlar geniş funksionallığa malik olsa da, eyni zamanda daha yüksək risk daşıyan "əsas açar" rolunu oynayır. Virtual kart isə bu baxımdan əlavə təhlükəsizlik qatıdır və daha çox "idarə olunan açar" kimi çıxış edir. Bankçılıqda bu yanaşma "Spending Limit Management" (xərclərin məhdudlaşdırılması idarəetməsi) kimi tanınır və istifadəçiyə xərclər üzərində daha çevik nəzarət imkanı verir. Virtual kartların əsas xüsusiyyətlərinə fiziki daşıyıcının olmaması, sürətli şəkildə yaradılıb silinə bilməsi, limit və istifadə qaydalarının asanlıqla idarə olunması daxildir. Bu kartlar əsasən onlayn ödənişlər üçün nəzərdə tutulur və təhlükəsizlik baxımından istifadəçilərə əlavə üstünlük verir".


İsmayıl Məmmədov

## Harada istifadə olunur?

Bu kartların daha çox hansı məqsədlər üçün istifadəsinə gəldikdə isə, İ.Məmmədov bildirir ki, virtual kart xüsusilə xarici saytlardan alış-veriş (məsələn, "Amazon", "AliExpress" və s.), abunəlik ödənişləri ("Netflix", "Spotify" və s.), tanımadığınız və ya yeni saytlarla ödənişlər, sosial şəbəkələrdə reklam ödənişləri və səyahət rezervasiyalarında istifadə olunmalıdır: "Virtual kartlar çox vaxt adi plastik kartlardan daha təhlükəsiz hesab olunur. Onun əsas üstünlükləri arasında əsas kart məlumatlarının gizli qalması, istifadə limiti təyin etmək imkanı (məsələn, 20 AZN ilə riskin azalması), əsas hesabın boşaldılması riskinin azalması göstərilə bilər".

### HƏR PLATFORMA ÜÇÜN AYRI KART

Mütəxəssisin sözlərinə görə, istifadəçilərin virtual kartlardan istifadə edərkən ən çox etdikləri səhvlər arasında böyük məbləğləri bir kartda saxlamaq, eyni kartı hər yerdə istifadə etmək, abunəlikləri unutmaq (kartda pul qalması səbəbindən avtomatik ödənişlərin çəkilməsi), şübhəli saytlarda kart məlumatını daxil etmək və SMS/OTP kodlarını paylaşmaqdır: "Birdəfəlik (single-use) kartların istifadəsi isə xüsusilə ilk dəfə alış etdiyiniz, pulsuz sınaq platformaları və "kart saxlanılsın?" deyən platformalarda vacibdir. Məsələn, "Netflix", "Spotify" və digər xarici alışlar üçün ən təhlükəsiz yanaşma birdəfəlik virtual kartdan istifadə etməkdir. Ən düzgün strategiya olaraq hər bir xidmət üçün ayrı virtual kart yaratmaq, istifadə limiti təyin etmək, yalnız həmin xidmət üçün kartı istifadə etmək və artıq lazım deyilsə kartı silmək tövsiyə olunur".

İ.Məmmədov sonda vurğulayır ki, virtual kartların düzgün istifadəsi üçün 3 əsas qaydanı bilmək vacibdir: "Hər məqsəd üçün ayrı kart istifadə etmək, kartda böyük məbləğ saxlamamaq və şübhə yarandıqda kartı dərhal silmək əsas qaydadır. Müasir bankçılıqda ən böyük risk texnologiya deyil, istifadəçi davranışıdır. Virtual kartlar istifadəçinin davranış zəifliklərinə qarşı ən güclü silahdır". Məlumat üçün bildirək ki, qlobal ödəniş nəhəngləri "Visa" və "Mastercard" son hesabatlarında virtual kart əməliyyatlarının həcminin davamlı şəkildə artdığını qeyd edir. Bu artım əsasən e-ticarət platformalarında müşahidə olunur. Xüsusilə "Amazon" kimi iri e-ticarət platformalarında alış-veriş edən istifadəçilər üçün virtual kartlar əlavə qoruma qatıdır. Birdəfəlik istifadə üçün yaradılan kartlar istifadəçi məlumatlarının üçüncü tərəflərə ötürülməsi riskini minimuma endirir.

# QAFQAZIN TURİZM XƏRİTƏSİNDƏ HƏRƏKƏTLİLİK

**Bakı-Tbilisi qatarlarının fəaliyyətini bərpa etməsi turizm baxımdan da əlavə imkanlar yaradıb. Artıq turizm şirkətləri bu istiqamətdə paket turlar təklif etməyə başlayıblar. Gürcüstan vasitəsi ilə Türkiyəyə səfər edənlər də çoxalıb.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakı-Tbilisi qatarlarının yenidən fəaliyyətə başlaması regionda səyahət və turizm imkanlarına marağı yenidən gündəmə gətirib. Uzun fasilədən sonra bərpa olunan bu marşrut sərnişinlər üçün həm alternativ nəqliyyat vasitəsi, həm də yeni səyahət istiqamətləri baxımından diqqət çəkir. Son günlərdə sosial platformalarda turizm şirkətlərinin bu istiqamətdə paket turlar təklif etməsi də marağın artdığını göstərir.

Qatar xəttinin bərpası ilə bağlı ictimai gözləntilər və səyahət planları fonunda Tbilisinin tranzit mərkəz kimi rolu, eləcə də region ölkələri arasında əlaqələrin daha da genişlənməsi məsələsi aktuallaşır. Bu kontekstdə həm qiymət dəyişiklikləri, həm də yeni marşrut imkanları diqqət mərkəzinə çevrilib.

Turizmçilər "Kaspi"yə açıqlamalarında Bakı-Tbilisi qatar xəttinin turizmə təsiri, qiymət siyasəti və potensial tranzit imkanları ilə bağlı fikirlərini bölüşüblər.

## "TƏKLİF OLUNAN TURPAKETLƏR HƏLƏ AZDIR"

Turizmçi Əfsun Əhmədov bildirir ki, bu səfərlərə maraq kifayət qədər yüksəkdir: "Artıq Bakı-Tbilisi qatarı ilə Gürcüstana səyahət etmək mümkündür. Bu ölkəyə gediş üçün viza tələbi yoxdur. Turizm şirkətləri Tbilisi istiqamətində aktivləşib. Azərbaycan-Gürcüstan istiqamətli turlar var, amma birbaşa "Bakı-Tbilisi qatar turu" adı ilə paket hələ azdır. Əsasən Azərbaycan daxilində və Gürcüstan daxilində turlar təklif olunur. Məsələn, Tbilisi, Kazbegi, Kakheti turları kimi. Tur şirkətləri tərəfindən artıq "qatarla Gürcüstan" paketləri də təklif olunur. Qatarların fəaliyyətinin bərpasından sonra Gürcüstan vasitəsi ilə Türkiyəyə səfər edənlər də çoxluq təşkil edir".

## "QARA DƏNİZ ŞƏHƏRLƏRİNƏ GETMƏK DƏ ASANLAŞIB"

Qiymətlərə gəlincə, turizmçi bildirir ki, qiymətlər müxtəlif şərtlərdən asılı olaraq bir nəfər üçün təxminən 109-237 USD (185-403 AZN) arası dəyişir: "Pandemiyadan əvvəlki dövrlə müqayisə etsək, qiymətlər təbii ki, bir qədər yüksəkdir. Turizmin canlanması üçün qiymətlər mümkün qədər balanslaşdırılır".

Turizmçi bildirir ki, sırf qatarla səyahət etmək istəyənlər üçün belə bir marşrut var: "Bakı-Tbilisi-Axalkalaki-Qars sonra Türkiyə daxili qatarlarla Trabzon, Rizə, Hopa və s. Yəni artıq Qara dəniz şəhərlərinə getmək asanlaşıb. Qara dəniz sahilləri üçün ən rahat marşrut Tbilisidən Qarsa qatar, Qarsdan Batumi/Hopa istiqamətinə avtobus+qatar kombinasiyasıdır. Birbaşa Bakı-Trabzon qatarı yoxdur, amma Qars-Trabzon marşrutu var".




Foto: Tapdıq Abdullayev/Global Photostock

## KOMBİNƏ OLUNMUŞ MARŞRUTLARA ŞƏRAİT YARANIB

Turizmçi Günel Şıxıyeva Bakı-Tbilisi qatarına marağın kifayət qədər yüksək olduğunu bildirir: "Qatar altı illik fasilədən sonra yenidən fəaliyyətə başlayıb və ilk günlərdə 1000-dən çox bilet satılıb, hətta əlavə vaqon qoşulub. Gürcüstan Dəmir Yolları da satışların gözləniləndən yüksək olduğunu açıqlayıb". G.Şıxıyeva bildirir ki, hazırda Bakı-Tbilisi marşrutu üzrə bir istiqamət üçün qiymət 81 AZN-dən başlayır və əvvəlki illərlə müqayisədə artıb. O qeyd edib ik, bu marşrut xəttindən istifadə edib Türkiyəyə, Qara dəniz sahillərində səyahətə üstünlük verənlər də çoxalıb: "Ən çox istifadə olunan marşrut "Bakı-Tbilisi-Batumi-Trabzon Uzungöl"dür. Bakı-Tbilisi qatarının açılması Gürcüstan üzərindən Türkiyənin Qara dəniz bölgəsinə daha rahat və nisbətən büdcəli kombinə olunmuş marşrutların yaranmasına şərait yaradır".



Günel Şıxıyeva

## ÖLKƏMİZƏ TURİST AXINI İLƏ BAĞLI GÖZLƏNTİLƏR NƏDƏN İBARƏTDİR?

Turizmçi Əziz Şiriyev hesab edir ki, bu, alternativ olaraq dəmir yolundan istifadə imkanının yaranması, turizm baxımdan əlverişlidir. Turistlər qatarlardan istifadə etməklə Bakıya və Gürcüstana və Türkiyəyə səyahət etmək imkanı əldə ediblər. Turizmçi bu marşrutun böyük marağa səbəb olduğunu bildirir: "Bu addım turizmə öz töhfəsini verəcək və ölkəmizə turist axınına gətirib çıxaracaq. Həmçinin iqtisad-siyasi və mədəni əlaqələrin inkişafına, Qafqaz turlarının aktuallaşmasına səbəb olacaq. Gələn turistlər yolüstü regionlarda düşə və oradan gəzə-gəzə Bakıya gələ və dəmiryolu ilə qayıda bilərlər. Bu, regionların inkişafına da öz töhfəsini verər". Turizmçi hesab edir ki, Bakı-Tbilisi qatarlarının fəaliyyəti insanlara əlavə səyahət imkanları da təqdim edir: "Bu alternativlər turistlərə əlavə imkanlar təqdim edir ki, bunlardan yararlanaraq özlərinə uyğun paketlər götürə bilirlər. İstənilən halda ölkəyə giriş imkanlarının genişlənməsi turistlərin axınına müsbət təsirini göstərir".



Əziz Şiriyev

Turizmçi Aytac Nəzərlinin sözlərinə görə, Bakı-Tbilisi qatarının fəaliyyətə başlaması səyahətsevərlərin marağına səbəb olub, amma qiymət ürəkaçan deyil: "Qatar yolunun açılmasına nə qədər sevindiksə, bir o qədər də qiymətlərə görə məyus olmuşuq. Düzdür, altı il əvvəlki qiymətdə fərq olmalıdır, amma bu qədər də yox".



Aytac Nəzərli

# "SON ZƏNG" NEÇƏYƏ BAŞA GƏLİR?

Bir çox valideyn üçün "Son zəng" həm də əlavə xərc deməkdir. Əvvəllər məzunlar qara şalvar, ağ köynək, qara ətək və bir neçə şəkillə kifayətlənirdisə, bu gün siyahı daha uzundur.

**SEVİNC ABBASOVA**

"Son zəng"ə sayılı günlər qalır. Hər il olduğu kimi, bu il də məzunlar son dəfə məktəb həyatında toplaşmağa, müəllimləri ilə vidalaşmağa hazırlaşırlar. Ancaq son illər "Son zəng" təkcə duyğusal deyil, həm də xərc baxımından ən çox müzakirə olunan tədbirlərdən birinə çevrilib.

Əgər bir zamanlar məzunlar qara şalvar, ağ köynək, qara ətək və bir neçə şəkillə kifayətlənirdisə, bu gün siyahı daha uzundur: xüsusi geyim, foto və video çəkilişi, rəqslər, məzun albomu, restoranda qala gecə və müxtəlif əyləncələr. Nəticədə bir çox valideyn üçün "Son zəng" həm də əlavə xərc deməkdir.

Maraqlıdır, "Son zəng"də bir şagird üçün valideynlərin ortalama nə qədər xərci çıxır?

### AYLAR ÖNCƏ BAŞLAYAN HAZIRLIQ

Bu tədbirə hazırlıq aylar öncə başlayır. Şagirdlər geyim seçir, rəqs məşqlərinə qatılır, məzun albomları hazırlanır, foto və video çəkilişləri təşkil olunur. Bəzi məktəblərdə əlavə olaraq restoran proqramları, gəzintilər və əyləncə tədbirləri də planlaşdırılır. Valideynlərin sözlərinə görə, ən böyük xərc geyimlə bağlı olur. Xüsusilə qızlar üçün paltar, ayaqqabı, saç və makiyaj xidmətləri əlavə məbləğ tələb edir. Oğlanlar üçün isə kostyum, köynək və ayaqqabı xərcləri yaranır. Orta hesabla bir məzunun geyimi minimum 130-150 manat arasında dəyişir.

"Son zəng" tədbirlərinin bədii hissəsi də əlavə maliyyə yükü yaradan əsas istiqamətlərdən biridir. Restoran və ya xüsusi tədbir məkanlarında təşkil olunan məzun gecələrinin qiyməti adambaşına minimum 80 manatdan başlayır.

Bununla yanaşı, foto və video çəkilişləri, sinif albomları, bəzək işləri və digər təşkilati məsələlər üçün də vəsait toplanır. Məzun albomu və xatirə çəkilişləri ilə bağlı qiymətlər seçilən paketdən, çəkilişin formatından və məzunların sayından asılı olaraq dəyişir. Hazırda məzun albomu çəkilişlərinin qiyməti adambaşına təxminən 45-120 manat arasındadır. Bu paketlərə, studiya çəkilişləri ilə yanaşı, açıq havada həyata keçirilən fotosessiyalar da daxil edilir. Bütün bu xərclər toplandıqda, bir məzun üçün valideynlərin çəkdiyi orta xərc təxminən 350-450 manat arasında dəyişir. Lakin bəzi hallarda xüsusi dekorasiyalar, rəqs hazırlıqları, nəqliyyat xidmətləri və digər təşkilati məsələlər nəzərə alındıqda bu rəqəm daha da yüksələ bilir.



Ramin Nurəliyev



**Foto:** Əhməd Hətəmzadə/Global Photostock

## MƏZUNLARIN XÜSUSİ RƏQS NÖMRƏLƏRİ

Rəqs müəllimi İftixar Rəsulovun sözlərinə görə, son illərlə müqayisədə bu il məzunlar "Son zəng" proqramlarında milli rəqslərə daha çox maraq göstərirlər. Məzunların bildirdiyinə əsasən, məktəb direktorları "Son zəng" proqramlarında milli dəyərləri əks etdirən rəqslərin yer alması ilə bağlı təlimat veriblər.

Rəqs müəllimi qeyd edib ki, adətən tədbir üçün hər sinfə iki rəqs nömrəsi hazırlanır. Bunlardan biri daha çox klassik vals, digəri isə milli və ya müasir üslubda olur. Hazırlıq prosesi isə tədbirdən təxminən iki ay əvvəl başlayır. Bu müddət ərzində şagirdlər həftədə bir neçə dəfə məşqlərə qatılır, çıxışların quruluşu hazırlanır və proqram "Son zəng" gününə qədər təkmilləşdirilir.

İ.Rəsulovun sözlərinə görə, rəqs hazırlıqlarının qiyməti müəllimin təcrübəsindən, məşqlərin sayından və proqramın mürəkkəbliyindən asılı olaraq dəyişir. Hazırda bir məzun üçün ödəniş məbləği orta hesabla 25-50 manat arasında dəyişir. Bəzi hallarda əlavə məşqlər və xüsusi səhnə quruluşları qiymətin daha yüksək olmasına səbəb ola bilir.

### DƏBDƏBƏLİ TƏDBİRLƏR MƏQSƏDƏUYĞUN SAYILMIR

Təhsil eksperti Ramin Nurəliyev hesab edir ki, ümumtəhsil məktəblərində keçirilən "Son zəng" tədbirləri məktəb rəhbərliyinin və müəllimlərin nəzarəti altında təşkil olunmalıdır. Onun sözlərinə görə, tədbirin həm rəsmi, həm də bədii hissəsi əvvəlcədən hazırlanmış ssenari əsasında həyata keçirilməlidir.

Ekspert dəbdəbəli və həddindən artıq xərc tələb edən tədbirlərin tərəfdarı olmadığını da qeyd edib. O hesab edir ki, sadə və səmimi şəkildə təşkil olunan tədbirlər daha məqsədəuyğundur: "Son zəng hər bir məzunun həyatında mühüm xatirədir. Şagird on bir il təhsil aldığı məktəblə, müəllimləri və sinif yoldaşları ilə vidalaşır. Buna görə də həmin günün yaddaqalan şəkildə qeyd olunması tamamilə təbiidir. Foto çəkilişləri, xatirə tədbirləri və müxtəlif proqramlar dünyanın bir çox ölkələrində mövcud olan ənənələrdir. Bu cür tədbirlərə tam qadağa qoymaq düzgün deyil. Müəyyən məhdudiyyətlər tətbiq olunsa belə, şagirdlər tədbirləri başqa məkanlarda təşkil etməyə çalışa bilərlər ki, bu da daha ciddi problemlərə səbəb ola bilər. Buna görə də prosesin məktəb rəhbərliyi və müəllimlərin nəzarəti altında həyata keçirilməsi daha doğru yanaşmadır".



## VALİDEYNLƏRİN ÜZƏRİNƏ DÜŞƏN MƏSULİYYƏT

Sosioloq Mail Yaqubun fikrincə, son illər "Son zəng" tədbirləri mahiyyətindən uzaqlaşaraq bəzi hallarda həddindən artıq dəbdəbəli və təmtəraqlı xarakter almağa başlayıb. Onun sözlərinə görə, bu tendensiya ailə büdcələrinə ciddi maliyyə yükü yaradır. Sosioloq hesab edir ki, belə halların qarşısını inzibati qadağalarla almaq mümkün deyil və burada əsas məsuliyyət valideynlərin üzərinə düşür. "Valideynlər övladları ilə söhbət aparmalı, onlara izah etməlidirlər ki, bu qədər xərc çəkmək və israfçılığa yol vermək əslində heç bir məna daşımır. Məktəblilər yaş etibarilə bunun iqtisadi və sosial tərəflərini tam dərk etməyə bilərlər. Məhz buna görə də valideynlərin maarifləndirici rolu böyük əhəmiyyət daşıyır", - deyə o bildirib.

M.Yaqub vurğulayıb ki, "Son zəng" tədbirlərinin məktəblər arasında bir növ yarışa çevrilməsi düzgün yanaşma deyil. Onun fikrincə, hansısa məktəbin və ya sinfin daha təmtəraqlı tədbir keçirməsi digərlərinin də eyni yolu seçməsinə səbəb olmamalıdır.



Mail Yaqub

# BAKI ƏTRAF MÜHİT GÜNÜNƏ EV SAHİBLİYİ ETDİ




**Xəzər dənizinin səviyyəsinin azalması ilə bağlı Azərbaycan üç Xəzəryanı ölkə - Qazaxıstan, Türkmənistan və Rusiya ilə ikitərəfli işçi qrupları yaradıb.**

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində Bakıda Ümumdünya Ətraf Mühit Gününə (WED) ev sahibliyi edib. Tədbir "Təbiətdən ilham alaraq. İqlim naminə. Gələcəyimiz naminə" mövzusu altında keçirilib. Tədbirdə Azərbaycan nümayəndə heyəti ilə yanaşı, UNEP-in nümayəndələri də iştirak edib.

### YALNIZ AYRI-AYRI ÖLKƏLƏRİN MƏSULİYYƏTİ DEYİL

Tədbirdə çıxış edən ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov bildirib ki, ətraf mühitin qorunması yalnız ayrı-ayrı ölkələrin deyil, bütün beynəlxalq ictimaiyyətin ortaq məsuliyyətidir. Onun sözlərinə görə, Azərbaycan bu tədbirə ilk dəfədir ev sahibliyi edir: "Ətraf mühitin qorunması yalnız ayrı-ayrı ölkələrin deyil, bütün beynəlxalq ictimaiyyətin ortaq məsuliyyətidir. Bu məsələ transsərhəd xarakter daşıyır".



Rəşad İsmayılov

Nazir əlavə edib ki, Azərbaycan ərazilərinin bir hissəsi işğal dövründə böyük dağıntılara məruz qalıb: "Bu gün azad olunmuş ərazilərdəki bərpa və quruculuq işlərində ekoloji yanaşmalara üstünlük verilir".

### ÜÇ ÖLKƏ İLƏ İŞÇİ QRUP YARADILIB

Nazir bildirib ki, Azərbaycan Xəzər dənizində suyun səviyyəsinin azalmasının qarşısının alınması üçün üç sahilyanı ölkə ilə işçi qrupları yaradıb. Onun sözlərinə görə, Azərbaycan Xəzərin səviyyəsinin azalmasının qarşısını almaq üçün sahilyanı ölkələrlə birgə tədbirlər görür: "Xəzər dənizinin səviyyəsinin azalması ilə bağlı Azərbaycan üç Xəzəryanı ölkə - Qazaxıstan, Türkmənistan və Rusiya ilə ikitərəfli işçi qrupları yaradıb. Bu qruplar çərçivəsində səbəblərin elmi araşdırılması, məlumat mübadiləsi, monitorinq və uyğunlaşma tədbirlərinin hazırlanması istiqamətində birgə fəaliyyət nəzərdə tutulur".

### GENİŞMİQYASLI LAYİHƏLƏR İCRA OLUNUR

Nazir qeyd edib ki, son 20 il ərzində təkcə Bakı şəhərində 100-dən çox park və yaşıllıq zonası salınıb, ekoloji tarazlığın qorunması və vətəndaşların daha sağlam mühitdə yaşaması istiqamətində genişmiqyaslı layihələr icra olunub. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə ətraf mühitin mühafizəsi, yaşıllaşdırma və meşə fondu ərazilərinin meşə ilə örtülü sahəsinin artırılması sahəsində ardıcıl və məqsədyönlü dövlət siyasəti həyata keçirilib və böyük nailiyyətlər əldə olunub.

Nazirin sözlərinə görə, Azərbaycan zəngin biomüxtəlifliyə malik ölkədir: "Bu mirasın mühafizəsi - qorunan təbiət ərazilərinin genişləndirilməsi, milli parkların inkişafı, meşə ilə örtülü sahələrin artırılması və nadir növlərin tarixi areallarına qaytarılması bu gün məsuliyyət, gələcəyə isə töhfəmizdir. Son illərin uğurları kimi, Axar-Baxar və İlisu Milli Parklarının yaradılması ilə mühafizə olunan ərazilər şəbəkəsinin ölkə ərazisi miqyasında 10%-dən çox genişləndirilməsini, Qarabağ və Şərqi Zəngəzurda yeni milli parkların yaradılması işlərinə başlanılmasını göstərmək olar".

### AZƏRBAYCANIN TÖHFƏLƏRİ YÜKSƏK QİYMƏTLƏNDİRİLİB

UNEP-in icraçı direktoru İnger Anderson deyib ki, Azərbaycan iqlim fəaliyyətində həm qlobal, həm regional, həm də milli səviyyədə mühüm rol oynayır. O, Azərbaycanın COP29-a ev sahibliyini xatırladaraq Prezident İlham Əliyevin nümayiş etdirdiyi güclü liderlik nəticəsində mühüm öhdəliklər və nəticələr əldə olunduğunu bildirib: "Bakıda keçirilən iqlim danışıqları dünyanın 2035-ci ilədək iqlim maliyyələşdirilməsi üçün 300 milyard dollar səfərbər edilməsi ilə bağlı razılığa gəlməsinə yol açdı. Eyni zamanda, ötən ay Bakı Ümumdünya Şəhərsalma Forumuna da ev sahibliyi etdi. Tədbir dünya ölkələrində iqlim dayanıqlığının gücləndirilməsi zərurətini ön plana çıxardı".



# Nar "JestPlus" tətbiqi üzrə görüş keçirib

Sərfəli mobil operator "Nar"ın dəstəyi ilə Peşə Əmək Reabilitasiya Mərkəzində "JestPlus" mobil tətbiqinin istifadəsinə həsr olunmuş maarifləndirici görüş keçirilib. Tədbirdə 30 eşitmə və nitq məhdudiyyətli şəxs iştirak edib. Görüşün məqsədi iştirakçıları "JestPlus" mobil tətbiqinin istifadə qaydaları və təqdim etdiyi imkanlarla tanış etmək olub.

Azərbaycanda ilk dəfə jest dilinin öyrənilməsi üçün yaradılan "JestPlus" tətbiqi istifadəçilərə interaktiv dərslər, testlər və praktiki tapşırıqlar vasitəsilə jest dilini sistemli şəkildə mənimsəməyə imkan verir. Tətbiq eşitmə və nitq məhdudiyyətli şəxslərin ünsiyyət imkanlarının genişləndirilməsinə, inklüzivliyin təşviqinə və jest dilinin daha geniş auditoriya üçün əlçatan olmasına xidmət edir. Bu mühüm sosial layihə "Nar"la yanaşı, ADA Universiteti və ADA Universiteti Fondunun, bp və onun tərəfdaşlarının dəstəyi ilə reallaşdırılıb. Qeyd edək ki, "JestPlus" tətbiqini "App Store" və "Google Play" platformalarından yükləmək mümkündür.

Tədbirdə Peşə Əmək Reabilitasiya Mərkəzinin direktoru Rəhilə Həsrətli, "Karlara Dəstək" İctimai Birliyinin sədr müavini Heydər Rəhimli, "Nar"ın Koprorativ sosial məsuliyyət və sponsor layihələri üzrə eksperti Nurana Əliyeva və ADA Universitetinin nümayəndəsi, "JestPlus" layihəsinin texniki məsələlər üzrə rəhbəri Amir Adamov çıxış edərək rəqəmsal inklüzivliyin və əlçatan təhsil imkanlarının əhəmiyyətini vurğulayıblar. İnteraktiv formatda keçirilən görüş zamanı iştirakçılara tətbiqin funksiyaları nümayiş etdirilib, onların sualları cavablandırılıb və tətbiqdən istifadə ilə bağlı praktiki tövsiyələr təqdim olunub.

"Nar" cəmiyyətin müxtəlif qrupları üçün bərabər imkanların yaradılmasına və rəqəmsal əlçatanlığın artırılmasına yönəlmiş təşəbbüsləri dəstəkləməyə davam edir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 713
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

GÖRKƏMLİ PEDAQOQ, MAARİFÇİ, TƏRCÜMƏÇİ ABDULLA BƏY ƏFƏNDİYEV HAQQINDA QEYDLƏR

# MÜƏLLİMLİKDƏN DEPUTATLIĞA UZANAN YOL

Görkəmli maarif xadimi, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü Abdulla Əfəndiyevin təhsil sahəsindəki xidmətləri bu gün də unudulmur.

RAFİK SƏFƏROV

Görkəmli maarif xadimi, tərcüməçi, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) parlamentinin üzvü Abdulla bəy Əfəndiyev 1873-cü ildə Şəkidə məmur ailəsində anadan olub. O, 1880-1888-ci illərdə ibtidai təhsilini evdə və məhəllə məktəbində alıb, 1888-1894-cü illərdə isə Yelizavetpoldakı (Gəncədə) sənət məktəbində kənd təsərrüfatı üzrə orta ixtisas təhsili əldə edib. Daha sonra 1898-ci ildə Tiflisdə Aleksandr Müəllimlər İnstitutunda təhsilini başa vurduqdan sonra Bakıda pedaqoji fəaliyyətə başlayıb. 1898-1920-ci illərdə müxtəlif məktəblərdə müəllim və müdir vəzifələrində çalışıb.

## MİLLİ SİNİFLƏRİN MÜƏLLİMLƏRİ ÜÇÜN AÇILAN KURSLARA RƏHBƏRLİK EDİB

Abdulla Əfəndiyev Qafqaz müsəlman müəllimlərinin 1906-cı ildə keçirilmiş I və 1907-ci ildə keçirilmiş II qurultaylarında fəal iştirak edib. Həmin qurultaylarda görkəmli pedaqoq Süleyman Sani Axundov və Fərhad Ağazadə ilə birgə tərtib etdiyi yeni əlifba layihəsini müzakirəyə çıxarıb. Onlarla birlikdə həmin əlifba layihəsi və qurultayda qəbul olunmuş proqram əsasında "İkinci il" (1908) dərsliyini nəşr etdiriblər. O, 1918-ci ildə Nuxa (Şəki) şəhərindən AXC-nin Milli Şurasının deputatı seçilir və hökumətin təhsil siyasətinin həyata keçirilməsində əhəmiyyətli rol oynayıb. AXC dövründə onun təhsil və mədəni quruculuq sahələrində həyata keçirilmiş tədbirlərdəki rolu və iştirakı danılmazdır.

Həmin dövrdə Xalq Maarif Nazirliyi tərəfindən Bakı şəhərində milli siniflərin müəllimləri üçün xüsusi kurslar açılıb. Həmin kurslara məhz Abdulla Əfəndiyev rəhbərlik edib. O, dünyaya göz açdığı Şəkidə də ilk oğlan, ilk qız məktəblərinin, gimnaziyanın banisi kimi tanınıb və Şəki folklorunun toplanılması, araşdırılması və təbliği istiqamətində mühüm işlər görüb.

## "ƏHRAR" PARTİYASININ BƏYANNAMƏSİNİ ELAN EDİR

1918-ci il dekabrın 26-da AXC parlamentinin beşinci iclasında hökumətin bəyannaməsi elan edilib. Həmin bəyannamədə təhsil-maarif məsələlərinə xüsusi yer ayrılmışdı. İclasda Abdulla Əfəndiyev tərəfindən "Əhrar" partiyasının bəyannaməsi elan olunub: "Xalq təhsili işində icbari ümumi təhsil tətbiq edilməlidir. Müəllim seminariyaları, peşə və kommersiya məktəblərinin şəbəkəsi genişləndirilməlidir. Bu il universitet də açılmalıdır. Məktəblər kifayət qədər müəllimlərlə təmin olunmalıdır. Məktəblər milliləşdirilməlidir. Dövlət təşkilatlarında bütün kargüzarlığın milli türk dilində aparılması üçün tədbirlər görülməlidir..."

## DƏRSLİKLƏRİN HƏMMÜƏLLİFİ İDİ

1919-cu ildə Azərbaycanın görkəmli maarif və ədəbiyyat xadimləri Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla bəy Əfəndiyev, Cəmo Cəbrayılbəyli, Səmədbəy Acalov, Fərhad Ağazadə, Ağabəy İsrafilbəyov və başqalarının iştirakı ilə işlənib hazırlanmış "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii" dərslikləri Xalq Maarif Nazirliyi tərəfindən kütləvi nəşrə buraxılır. Bu dərsliklərin həmmüəlliflərindən biri də məhz Abdulla Əfəndiyev olub.

Cümhuriyyət dövründə Abdulla Əfəndiyev Fətəli Xan Xoyskinin əlifba islahatına dair təşkil etdiyi komissiyanın tərkibində çalışıb. Müzakirəyə təqdim etdiyi əlifba layihəsi komissiya tərəfindən bəyənilib. A.Əfəndiyevin tərtib etdiyi əlifba əsasında müstəqil dövlətin "Son türk əlifbası" adlı dərsliyinin (1919) nəşrinə icazə verilib.





## Türk dilində yeni kitabların alınmasına dəstək

AXC hökumətinin 28 iyul 1919-cu il tarixli iclasında xalq maarif nazirinin məktəblərin kitabxanalarına türk dilində yeni kitabların alınması üçün bir milyon pul vəsaitinin ayrılması barədə məruzəsi dinlənilir. Qərara alınır ki, təqdim edilmiş qanun layihəsi bəyənilsin və təsdiq olunması üçün parlamentə təqdim olunsun. Türk dilində kitabların alınması üçün hökumət tərəfindən bir milyon manat vəsaitin ayrılması məsələsinə parlamentin 18 sentyabr 1919-cu il tarixli 74-cü iclasında baxılır. Qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq qəbul edilir. Müzakirələrdə çıxış edən Abdulla Əfəndiyev ayrılması nəzərdə tutulan bir milyon manatın az olduğunu və kitabların Türkiyədən gətirilməsi məsələsinin həllində xüsusi təşəbbüslərə icazə verilməsini təklif edir.

## ƏDƏBİ YARADICILIQLA DA MƏŞĞUL OLUB

Ədəbi yaradıcılıqla məşğul olan Abdulla Əfəndiyev həm də uşaqlar üçün şeirlər, hekayələr yazıb. Bəzi mənbələrdəki məlumata görə, 1919-cu ildə Şəkinin "Mədəniyyət" mətbəəsində çap olunan onun siyasi lirika janrında qələmə aldığı "Ya ölüm, ya Türkiyə" mənzuməsi çox məşhur olur.

Abdulla Əfəndiyev həm də tərcümə işi ilə məşğul olub. O, İ.A.Krılovun, M.Y.Lermontovun şerlərini Azərbaycan dilinə çevirmişdi.

Abdulla Əfəndiyev "Rüstəmin yuxusu, yaxud röyası" (1906), "Şagirdlərə hədiyyə" (1914) kitablarının da müəllifidir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



ÖLKƏ DAXİLİNDƏ DAHA KEYFİYYƏTLİ VƏ FƏRQLİ MƏHSULLARA TƏLƏBAT FORMALAŞIR

# SÜD BAZARINDA YENİ REALLIQ

Süd məhsulları bazarında xaricdən idxalın payı artır. Rəsmi statistikaya görə, bu məhsulların idxalına 10 milyon 386 min ABŞ dolları vəsait sərf olunub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 35 faiz, dəyər baxımından isə 61 faiz artım deməkdir.




SEVİNC ABBASOVA

2026-cı ilin ilk üç ayında Azərbaycan xaricdən 5 min 858 ton süd və qaymaq alıb. Rəsmi statistikaya görə, bu idxala 10 milyon 386 min ABŞ dolları vəsait sərf olunub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 35 faiz, dəyər baxımından isə 61 faiz artım deməkdir. Müşahidə olunan artım tempi bu seqmentdə ciddi struktur dəyişikliklərinin baş verdiyini göstərir. Bəs süd və qaymaq idxalına çəkilən xərclərin kəskin artımının səbəbi nədir?

**HƏM İDXAL, HƏM DƏ XƏRC ARTIB**

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirlinin fikrincə, süd və qaymaq idxalına çəkilən xərclərin kəskin artımı təkcə qiymətlərin bahalaşması ilə izah oluna bilməz. Onun sözlərinə görə, burada həm idxal həcminin genişlənməsi, həm də xarici bazarlarda baş verən dəyişikliklər mühüm rol oynayır. Belə ki, idxalda təxminən 35 faizlik artım qeydə alınıb ki, bu da daxili istehsalın mövcud potensialına baxmayaraq, tələbatın yerli imkanlar hesabına tam ödənilmədiyini göstərir. Nəticədə bazarda yaranan boşluq idxal hesabına doldurulur.

Ekspert qeyd edir ki, hazırda dünyada müşahidə olunan geosiyasi proseslər də qiymətlərin formalaşmasına birbaşa təsir edir. Enerji resurslarının bahalaşması, nəqliyyat xərclərinin artması və logistika zəncirlərinin uzanması xüsusilə tez xarab olan məhsullar üçün daha ciddi problemlər yaradır. Süd və qaymaq məhsullarının daşınması isə xüsusi "soyuq zəncir" sistemi tələb etdiyindən, bu sahədə xərclər daha yüksək olur. Üstəlik, geosiyasi qeyri-sabitlik dövründə sığorta haqlarının artması da idxalın maya dəyərini yüksəldən amillər sırasındadır. Bu səbəbdən, süd və qaymaq idxal edən bütün ölkələr kimi Azərbaycan da qlobal qiymət artımının təsiri altındadır.



Akif Nəsirli

## PREMİUM MƏHSULLARA ARTAN MARAQ

A.Nəsirli diqqətə çatdırır ki, idxal strukturunda da müəyyən dəyişikliklər müşahidə olunur. Belə ki, bazarda məhsul çeşidi genişlənib, yeni brendlər ortaya çıxıb və daha yüksək keyfiyyətli, premium seqmentə aid məhsulların idxalı artıb. Bu isə onu göstərir ki, ölkə daxilində daha keyfiyyətli və fərqli məhsullara tələbat formalaşır. Lakin bu tendensiya ümumi idxal dəyərinin yüksəlməsinə də təsir edir.

Ekspertin sözlərinə görə, Azərbaycan uzun illər süd və süd məhsulları üzrə idxalda əsasən daha ucuz mənbələrə, xüsusilə İrana üstünlük verirdi. Lakin son dövrlərdə mövcud geosiyasi və iqtisadi vəziyyət səbəbindən bu istiqamətdə idxal imkanları məhdudlaşıb. Nəticədə, həm ucuz məhsul təklifi azalıb, həm də İrandan gələn məhsulların qiyməti müəyyən qədər yüksəlib. Bu boşluğu doldurmaq üçün alternativ bazarlara yönəlmişik. Hazırda idxal coğrafiyası daha da genişlənib və Rusiya, Türkiyə, Belarus, Qazaxıstan, Qırğızıstan, eləcə də Avropa ölkələrindən süd və qaymaq məhsulları gətirilir. Lakin bu ölkələrdən idxal olunan məhsulların əhəmiyyətli hissəsi daha yüksək qiymətli seqmentə aid olduğundan, ümumi idxal xərcləri də artır.

**YERLİ İSTEHSALI ZƏİFLƏDƏN AMİLLƏR**

Məsələnin digər tərəfi isə daxili istehsalın niyə bu tələbatı qarşılaya bilməməsi ilə bağlıdır. Ekspertin fikrincə, bu, heyvandarlıq sektorunda mövcud olan sistemli problemlərlə əlaqədardır. Əsas çətinliklərdən biri örüş sahələrinin məhdudlaşmasıdır. Bu, heyvandarlığın genişlənməsi imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Bununla yanaşı, istehsal xərclərinin artması da fermerlərin fəaliyyətini çətinləşdirir. Ekspert qeyd edir ki, bəzi ölkələrlə müqayisədə Azərbaycanda dizel yanacağının qiyməti yüksəkdir və bu, istehsalın maya dəyərinə birbaşa təsir edir: "Nəzərə alsaq ki, kənd təsərrüfatında xərclərin 30-40 faizi məhz yanacaqla bağlıdır, bu artımın ümumi qiymətlərə təsiri qaçılmaz olur. Digər mühüm məqam isə subsidiyalaşma mexanizmi ilə bağlıdır. Heyvandarlıq sahəsində subsidiyalar məhduddur. Bunun əsas səbəblərindən biri heyvanların qeydiyyat və identifikasiya sisteminin tam formalaşmamasıdır".

## İstehsal xərclərinin artımı bazarı dəyişir

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Cəfər İbrahimlinin sözlərinə görə, son dövrlərdə yem qiymətlərinin yüksəlməsi süd istehsalının maya dəyərinə birbaşa təsir göstərib. Bu tendensiya xüsusilə qış aylarında daha qabarıq hiss olunub. Südün ilkin satış qiymətində baş verən artım emal müəssisələrinin xərclərini yüksəldib və onları alternativ xammal mənbələri axtarmağa sövq edib. Nəticə etibarilə, bir sıra müəssisələr daha sərfəli qiymət və stabil təchizat üçün yaxın xarici bazarlara yönəlib, bu isə süd və qaymaq idxalının artmasına təkan verən əsas amillərdən birinə çevrilib.

**İDXAL STRUKTURUNDA DƏYİŞİKLİK**

Ekspert diqqətə çatdırır ki, bazarda başqa bir mühüm dəyişiklik də müşahidə olunur. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə kərə yağı idxalında azalma qeydə alınıb. Bu isə idxal strukturunun dəyişdiyini göstərir: artıq hazır məhsuldan daha çox xammal formasında - yeni süd və qaymaq şəklində məhsullar ölkəyə gətirilir. Bu xammal daxildə emal olunaraq son məhsula çevrilir.

C.İbrahimli vurğulayır ki, idxal olunan xammalın bir hissəsi yalnız daxili tələbatı ödəmək üçün deyil, eyni zamanda emal edilərək yenidən ixrac üçün də istifadə olunur. Xüsusilə kərə yağı istehsalı bu baxımdan önə çıxır. Ekspertin fikrincə, bu tendensiya müsbət qiymətləndirilə bilər. Əgər xammal bazası gücləndirilərsə, gələcəkdə daxili istehsal hesabına xama, qaymaq və kərə yağı kimi məhsulların istehsalının həcmini artırmaq mümkündür.



Cəfər İbrahimli

# SİLİNƏN TARİXÇƏ, ƏSASSIZ CƏRİMƏLƏR

**"AzParking" tətbiqində "Face ID" ilə təsdiqlənən parklanma seanslarının sonradan sistemdən silindiyi, SMS-lə başlayan ödənişlərin xəbərsiz dayandırıldığı və bəzi kartlardan bir neçə dəfə pul tutulduğu iddia olunur. Ödəniş etdiyini düşünən sürücülər sonradan əsassız cərimələrlə qarşılaşdıqlarını bildirirlər.**





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

"Mayın 19-u, saat 13:00 radələrində Əhməd Rəcəbli küçəsindəki rəsmi parklanma məntəqəsində dayandım. "AzParking" tətbiqinə daxil olub seansı başlatdım və ödənişi "Face ID" ilə təsdiqlədim. Ekranda vaxtın geriyə sayımı başladı - hər şey qanuni və şəffaf idi. Lakin cəmi iki saat sonra telefonuma əsassız cərimə protokolu gəldi. Tətbiqi açdıqda isə nə aktiv seans görünürdü, nə də tarixçə. "141" Çağrı Mərkəzinə zəng etdim və aldığım cavab belə oldu: "Bizim sistemdə görünmürsə, cəriməni ödəməlisiniz"."

Bu paylaşımı jurnalist Bahadur Seyidov edib. Son vaxtlar bu tipli şikayətlərə tez-tez rast gəlirik. Bəs rəqəmsal sistemin yaratdığı bu xaosda vətəndaş nə etməlidir?

### "141"-Ə ZƏNG EDİN

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) sorğumuza cavab olaraq bildirildi ki, parklanma ilə bağlı yaranan suallar, eləcə də qanunsuz cərimə iddiası ilə əlaqədar vətəndaşlar AYNA-nın "141" Çağrı Mərkəzi, elektron poçt ünvanı və agentliyin bütün sosial şəbəkə platformaları üzərindən müraciət edə bilərlər. Vətəndaşların hər hansı bir fakt üzrə müraciəti araşdırılaraq bilavasitə onların özlərinə təqdim olunur.

### "ARTIQ TƏTBİQƏ ETİBARIM QALMAYIB, HƏR DƏFƏ EKRAN GÖRÜNTÜSÜ ALIRAM"

Bahadur Seyidov isə deyir ki, əlində heç bir maddi sübut qalmadığı üçün dedikləri sadəcə iddia olaraq qalıb: "Çünki əməliyyat nə "AzParking" tətbiqinin, nə də bankın tarixçəsinə düşüb. Şikayət etdikdə isə qurumdan "sistemdə yoxdur" cavabını alıram. Bilsəydim, ödəniş edən an ekran görüntüsü alardım. Belə halla artıq ikinci dəfədir qarşılaşıram. Əvvəlkində mənə dedilər ki, guya ödəniş etməmişəm. Bu dəfə isə "Face ID" ilə təsdiqlədiyim üçün tam əmin idim, amma sübutsuz vəziyyətdəyəm. İndi artıq proqrama etibarım qalmayıb, hər dəfə park etdikdən sonra məcbur qalıb ekran görüntüsü alıram. Aydındır ki, proqram təminatında ciddi boşluqlar var, lakin qurum bunu araşdırmaqda maraqlı görünmür".

### "BU, İSTEHLAKÇI HÜQUQLARININ POZULMASIDIR"

Nəqliyyat eksperti Adil Nəbiyevin sözlərinə görə, rəqəmsal parklanma sistemlərində mobil tətbiq, mərkəzi server, internet bağlantısı və nəzarət kameraları arasında uyğunsuzluq yarananda belə halların baş verməsi texniki baxımdan tam mümkündür: "Vətəndaş öz telefonunda "Face ID" ilə ödənişi təsdiqləyir, lakin həmin məlumat şəbəkə kəsintisi səbəbindən mərkəzi verilənlər bazasında qeydə alınmır. Nəticədə, sürücü hər şeyi qanuni etdiyini düşünsə də, sistem onu "ödəniş etməyən" kimi görür və avtomatik cərimə generasiya edir. Ən təhlükəli məqam isə tətbiqin əməliyyat tarixçəsini də silməsidir. Bu, artıq sadəcə texniki nasazlıq deyil, hüquqi müstəvidə istehlakçı hüquqlarının pozulmasıdır. Problemin kökündə sistemin qeyri-şəffaf işləməsi dayanır".



Fotolar: Tapdıq Abdullayev/Global Photostock

## "Müstəqil nəzarət mexanizmi qurulmalıdır"

Ekspert bildirir ki, inkişaf etmiş ölkələrdə parklanma başlayan kimi sürücüyə dərhal elektron qəbz göndərilir. Azərbaycanda da bu mexanizm təcili tətbiq olunmalıdır: "Sistemdə kütləvi uyğunsuzluq varsa, araşdırma tamamlanana qədər cərimələrin icrası dondurulmalıdır. Sosial şəbəkələrdə yüzlərlə oxşar şikayət varsa, bu, artıq fərdi hadisə yox, sistemli problemdir. Təcili olaraq texniki audit aparılmalı və müstəqil nəzarət mexanizmi qurulmalıdır". Belə vəziyyətlə qarşılaşan vətəndaşlar rəqəmsal sübutları toplamağı vərdişə çevirməlidirlər: "Ən vacib addım parklanma başladığı anda dərhal ekran görüntüsü almaqdır. "Face ID" təsdiqi, geri sayım vaxtı, SMS bildirişi və bank çıxarışı kimi məlumatlar mütləq saxlanılmalıdır. Tətbiqdə tarixçə silinsə belə, bank əməliyyatının izi vətəndaşın xeyrinə ən ciddi sübutdur".

## Çağrı mərkəzinin idarəetmə sistemlərinə çıxışının olmaması

İKT üzrə ekspert Elvin Abbasovun sözlərinə görə, İT nöqteyi-nəzərindən bu cür halların baş verməsi tamamilə mümkündür. O, bildirdi ki, sistemdə yaşanan kütləvi nasazlıqların kökündə bank prosessinqi, mobil operator şlüzləri və mərkəzi nəzarət paneli arasındakı məlumat mübadiləsinin real vaxt rejimində sinxronlaşdırılmaması və konkurentlik xətaları dayanır: "Digər fundamental problem isə çağrı mərkəzi operatorlarının arxa fonda baş verən texniki xəta qeydiyyatı və sistem yaddaşı idarəetmə sistemlərinə çıxışının olmamasıdır. Bu səbəbdən operator verilənlər bazasındakı xətanı görə bilmir və vətəndaşa yalnız "sistemdə görünmürsə, ödəməlisiniz" kimi qeyri-peşəkar cavab verməyə məcburiyyətində qalır".

Ekspert düşünür ki, mərkəzi rəqəmsal sistemdə qeydiyyat itdikdə şifahi müraciətlər hüquqi sübut sayılmadığı üçün vətəndaş ilk növbədə bank tətbiqindən pulun silinməsini təsdiq edən elektron qəbzi, tranzaksiya kodlarını və ya gələn təsdiq mesajlarının ekran görüntülərini dərhal rəqəmsal sübut olaraq yadda saxlamalıdır.





Fotolar: Sabir Məmmədov/Global Photostock

### "VƏTƏNDAŞIN SÜBUTU YOXDURSA, CƏRİMƏNİ ÖDƏMƏLİDİR"

Hüquqşünas Elnur Məmmədovun sözlərinə görə, sürücülərin "AzParking"dən narazı qaldığı hallarla təcrübədə çox tez-tez rastlaşırlar. Bu vəziyyət əksər hallarda ya sürücünün zona kodunu yanlış daxil etməsi, ya da sistemdə hansısa xətanın baş verməsi səbəbindən yaranır: "Bir tərəfdə "AzParking" avtomobilin parklanma yerində dayandığını vizual olaraq qeydə alaraq rəqəmsal bazada heç bir seansın açılmadığını rahatlıqla sübut edir. Digər tərəfdə isə sürücü tətbiqi işə saldığını, balansından vəsait tutulduğunu nümayiş etdirməlidir. Mövcud qanunvericiliyə görə, sürücü zona kodunu yanlış daxil etsə belə, məhz həmin saatda tətbiq vasitəsilə balansından pul çıxıldığını sübut edə bilsə, müraciətdən sonra tərtib olunmuş protokol ləğv edilir və cərimə avtomatik silinir. Cərimənin silinməsinə nail olmaq üçün vətəndaşın əlində mütləq müəyyən maddi sübut olmalıdır ki, iddiasını əsaslandıra bilsin. Əgər sürücü texniki nasazlıq ucbatından ödənişə dair heç bir alternativ rəqəmsal sübut təqdim edə bilmirsə, cəriməni məcburi qaydada ödəməli olur".

# RƏSMİ SERVİS, YOXSA “TANIŞ USTA”?



**Yaxşı usta tapmaq texnikanı təmir etdirmək qədər çətin məsələyə çevrilib. Bu sahədə peşəkarlarla yanaşı, təcrübəni birbaşa müştərinin evində qazananlar da az deyil.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Evdə hər şey qaydasında olanda məişət texnikalarının önəmini çox da hiss etmirik. Soyuducu sakitcə işləyir, paltaryuyan öz ritmində fırlanır, kondisioner evdə istədiyiniz temperaturu yaradır, televizor isə axşamların əyləncəsinə çevrilir. Amma cihazlardan biri qəfil dayananda evdə bütün nizam pozulur, təcili usta axtarışına çıxırıq. Əsl problem də çox vaxt elə bundan sonra başlayır. Çünki nasaz texnikanı təmir etdirmək bəzən onu almaq qədər xərc tələb edir. Rəsmi servisə getsən, xidməthaqqı bəzən cihazın yarı qiyməti qədər olur. Cib yandıran bu qiymətlər bir çox insanı geri addım atmağa məcbur edir. Nəticədə vətəndaşların böyük hissəsi çıxış yolunu “tanış usta”, “məhəllənin ustası”, “filankəsin qohumu” və ya sosial şəbəkələrdə elan yerləşdirən fərdi təmirçilərdə görür. Lakin bu seçim hər zaman uğurlu olmur. Bəzən cihaz bir gün sonra yenidən xarab olur, bəzən dəyişdirildiyi deyilən detalın ümumiyyətlə dəyişmədiyi ortaya çıxır, kiçik problem daha böyük nasazlığa çevrilir. Çünki yaxşı usta tapmaq artıq texnikanı təmir etdirmək qədər çətin məsələyə çevrilib. Bu sahədə peşəkarlarla yanaşı, təcrübəni birbaşa müştərinin evində qazananlar da az deyil. Ona görə də insanlar indi təkcə “usta varmı?” sualını yox, daha çox “etibarlı usta varmı?” sualını verirlər.

### “ƏN GÜCLÜ REKLAM USTANIN ÖZ İŞİDİR”

Məişət avadanlıqlarının təmiri ustası Orxan Məmmədzadə deyir ki, usta seçərkən ilk növbədə onun təcrübəsinə və iş prinsipinin şəffaflığına diqqət yetirilməlidir. Onun sözlərinə görə, müştəri üçün ən vacib məqamlardan biri görülən işin aydın izah olunmasıdır: “Usta problemi müştəriyə başadüşülən şəkildə izah etməli, hansı hissənin niyə dəyişdirildiyini detallı şəkildə bildirməlidir. Təəssüf ki, bəzi hallarda texnikadan anlayışı olmayan insanlar əlavə xərclərlə qarşılaşa bilirlər. Buna görə də iş prosesində şəffaflıq əsas şərtdir. Əvvəlki müştərilərin rəyləri və tövsiyələr seçim zamanı mühüm rol oynayır. Uzun müddət eyni sahədə çalışan və müştəri etimadı qazanmış ustalar daha etibarlı sayılırlar. İndi ən güclü reklam ustanın öz işidir. Əgər bir usta keyfiyyətli işləyirsə, onu müştəri özü digərlərinə tövsiyə edir”.

## “XƏRCLƏR ƏVVƏLCƏDƏN DANIŞILMALIDIR”

Usta qeyd edir ki, görülən işə və dəyişdirilən hissələrə zəmanət verilməsi də vacib məqamlardandır. Bu, həm ustanın işinə məsuliyyətli yanaşmasını göstərir, həm də müştəri üçün əlavə təhlükəsizlik yaradır.
Qiymət məsələsinə gəldikdə isə Orxan Məmmədzadə təmirə başlamazdan əvvəl bütün detalların razılaşdırılmasını vacib sayır: “İş başlamazdan əvvəl qiymət dəqiq bilinməlidir. Hansı hissənin dəyişdiriləcəyi, əlavə xərc olub-olmayacağı əvvəlcədən danışılmalıdır. Keyfiyyətli təmir yalnız nasazlığı aradan qaldırmaq deyil, problemin kökünü tapmaqdır. Peşəkar usta sadəcə xarab olan hissəni dəyişmir, problemin haradan yarandığını araşdırır ki, eyni nasazlıq təkrar baş verməsin. Bu yanaşma həm cihazın ömrünü uzadır, həm də əlavə xərclərin qarşısını alır. Həmçinin, dəyişdirilən hissələrin orijinallığı mütləq soruşulmalı, mümkün olduqda köhnə detallar müştəriyə göstərilməlidir. Çünki bəzi hallarda sadə nasazlıqlar daha ciddi problemlər kimi təqdim edilə bilir. Digər mühüm məqam ustanın ixtisaslaşmasıdır. Bütün məişət texnikalarını “eyni səviyyədə təmir edən” ustalar hər zaman ən doğru seçim sayılmır. Konkret sahədə təcrübəsi olan ustalar daha stabil nəticə verir”.

### “BAZARDA TƏCRÜBƏSİ OLMAYANLAR ÇOXDUR”

Məişət texnikası ustası Elvin Abbasov bildirir ki, usta seçimi zamanı ən vacib məqamlardan biri həmin şəxsin gördüyü real işlərlə tanış olmaqdır. Onun sözlərinə görə, təcrübə yalnız sözlə yox, nəticə ilə ölçülməlidir: “Usta seçərkən onun əvvəllər hansı cihazlarla işlədiyini, hansı təmirləri həyata keçirdiyini öyrənmək vacibdir. Çünki alət tutmaq hələ ustalıq demək deyil. Hazırda bazarda özünü usta kimi təqdim edən, lakin kifayət qədər təcrübəsi olmayan şəxslərə də rast gəlinir. Bu isə sonradan cihazın yenidən sıradan çıxmasına səbəb olur. Bəzən görürsən ki, sadə bir alətlə işləyib özünü usta kimi təqdim edənlər var”.



## “KEYFİYYƏTSİZ DETALLAR CİHAZIN ÖMRÜNÜ XEYLİ QISALDIR”




Elvin Abbasov hesab edir ki, hər bir texniki işin arxasında təcrübə dayanmalıdır. Onun fikrincə, düzgün diaqnostika edilməyən nasazlıq yalnız müvəqqəti həll olunur və bu, həm əlavə xərc, həm də vaxt itkisi yaradır: “Peşəkar yanaşma yalnız təmir prosesi ilə məhdudlaşmır, həm də müştəri ilə münasibətdə özünü göstərir. Ustanın izah vermə bacarığı və şəffaf işləməsi də etibarın əsas hissəsidir. Usta seçimində ilk növbədə istifadə olunan ehtiyat hissələrinin orijinallığı mütləq soruşulmalıdır. Çünki keyfiyyətsiz və ya uyğun olmayan detallar cihazın ömrünü xeyli qısalda bilər. Digər mühüm məqam ustanın diaqnostika metodudur. Peşəkar usta problemi yalnız xarici əlamətlərə görə deyil, texniki yoxlama ilə müəyyən edir. Əks halda yanlış diaqnoz səbəbindən əlavə təmir xərcləri ortaya çıxa bilər”.

Bazarda tez-tez rast gəlinən hallardan biri də “çoxsahəli usta” modelidir. Yəni eyni şəxs soyuducu, paltaryuyan, televizor və kondisioneri eyni səviyyədə təmir etdiyini iddia edir. Mütəxəssislər bu yanaşmanı ehtiyatla qiymətləndirməyi tövsiyə edirlər, çünki ixtisaslaşma keyfiyyətə birbaşa təsir göstərir.

# NƏŞRİYYAT SEKTORUNDA ƏDALƏT AXTARIŞI

**Naşirlərlə tərcüməçilər arasında davamlı olaraq yaşanan problemlər bu sahədə ciddi narazılıqlar olduğunu göstərir. Amma tərəflər arasındakı fikir ayrılıqlarının həlli elə də asan görünmür.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Yazıçılar yazır, tərcüməçilər tərcümə edir, naşirlər nəşr edir. Amma qədim zamanlardan bəri bu tərəflər bir-birindən narazı olublar. Naşirlər yazıçıların tənbəlliyindən və qeyri-işgüzar yanaşmasından, tərcümənin qeyri-səlisliyindən şikayətləniblər. Müəlliflər isə naşirləri onlara az pul ödəməkdə günahlandırıblar. Tərəflər arasındakı bu anlaşılmazlıqlar zaman-zaman üzə çıxır və çözülmür. Bəs səbəb nədir?

### ƏMƏKDAŞLIĞIN HÜQUQİ VƏ MƏNƏVİ TƏRƏFİ

Tanınmış naşir, filologiya üzrə fəlsəfə doktoru Rafik İsmayılov nəşriyyatla müəllifin işbirliyini belə izah edir: "Naşirlə müəllif öz aralarında müəlliflik haqda müqavilə bağlayırlar və sənəddə bütün şərtlər, o cümlədən maliyyə şərtləri qeyd olunur. Sonrası müəllifin öz işini yaxşı icra etməsinə və nəşriyyatın da ona vaxtında qonorar ödəməsinə qalır. Məsələnin hüquqi tərəfini götürsək, bütün biznes qurumlarında olduğu kimi işbirliyi biznes qurumu ilə əməkdaş arasında tərtib olunan müqavilə əsasında baş verir. Mənəvi tərəfindən danışsaq, hamımız bilirik ki, bizdə nəşriyyat, kitab sektorunda qonorarlar başqa ölkələrlə müqayisədə azdır. Bəzən tərcüməçilər buna görə bir qədər keyfiyyətsiz iş görür, bəzən də nəşriyyatlar vaxtlı-vaxtında qonorarı ödəmirlər. Digər tərəfdən, o qədər az məbləğdən söhbət gedir ki, haqqı tapdanan tərcüməçi və ya müəllif özünə sığışdırıb məhkəməyə müraciət etmir. Çünki vəkil tutmaq və s. xərclər mübahisəli qonorardan daha çox olur. Ola bilsin ki, naşirlər də bu cür məqamlardan istifadə edib öz öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirmirlər".



Rafik İsmayılov

## "Tanınmış müəlliflərin agentləri əsasən hüquqşünaslar olurlar"

Naşir xarici ölkələrdəki nəşriyyat-müəllif işbirliyindən danışaraq bildirir ki, adətən tanınmış müəlliflər bu cür müqavilələri agentləri vasitəsi ilə bağlayırlar: "Hələ indiyə qədər dünya ölkələrinin nümunəsində hər hansı nəşriyyatın müəllifin haqqını tapdadığını eşitməmişəm. Tanınmış müəlliflərin agentləri əsasən hüquqşünaslar olurlar. Onlar müqavilənin düzgün tərtib olunmasına diqqət yetirir, onun icrasına diqqət edir, problem yarananda məhkəməyə qədər gedib çıxa bilirlər. Nəşriyyatlar da öz vəzifələrini düzgün yerinə yetirməməkdən çəkinirlər. Bizdə isə bəzi nəşriyyatlar tərcüməçilərin sıxıntı çəkən təbəqə olmasından istifadə edirlər". Yaranan problemin tənzimlənməsinə gəlincə, naşir hesab edir ki, bəlkə də Yazıçılar Birliyi və ya Naşirlər Assosiasiyası bu problemin həllində rol oynaya bilər: "Bu qurumlar həm də məhkəməyə qədər tərəflər arasında vasitəçi rolunu oynaya bilərlər. Amma təəssüf ki, onların heç biri bu funksiyanı üzərinə götürməyib".



Nəriman Əbdülrəhmanlı

### "QONORARIN MİNİMUM VƏ MAKSİMUM HƏDLƏRİ MÜƏYYƏNLƏŞMƏLİDİR"

Tərcüməçi Nəriman Əbdülrəhmanlı bildirir ki, nəşriyyat-müəllif əməkdaşlığı ilə bağlı problemlər zaman-zaman qalxır və həll olunmur: "Bu problemi köklü həll eləmək üçün nəşriyyatlar və nəşr siyasəti haqqında qanun qəbil edilməlidir. Nəşriyyatların fəaliyyəti, nəşriyyat rəhbərliyi ilə müəlliflər arasında münasibətlər qanunla yoluna qoyulmalıdır. İndiki durum qalarsa, problemlər həmişə yaranacaq". Yazıçı hesab edir ki, tərcüməçi ilə sifariş verən arasında müqavilə bağlananda qonorarın minimum və maksimum hədləri müəyyənləşməlidir: "Təəssüf ki, aşağı-yuxarı hədlər nəşriyyatlar üçün çox yüksək məbləğ kimi görünür. Ona görə sifarişçi ilə tərcüməçilər arasında problemlər yaranır".



Əsəd Cahangir

## "Əmək Məcəlləsindən başqa bir "vicdan məcəlləsi" də var"

Ədəbi tənqidçi Əsəd Cahangirin sözlərinə görə, Əmək Məcəlləsində problemin həllinin qanuni yolları göstərilib və mübahisəli məqamlarda bu sənədə əsaslanmaq olar: "Əmək Məcəlləsindən başqa bir "vicdan məcəlləsi" də var. İnsanı işlədirsənsə, gərək onun əməyinin haqqını da verəsən. Yazıçının, şairin, ümumilikdə qələm adamının zəhmət haqqını kəsmək olmaz". Tənqidçi bildirir ki, sovet dövründə bu məsələlərə çox ciddi yanaşma olub: "İşləyirdin, televiziyaya dəvət olunurdun, qəzetə yazırdın, qonorarını alırdın. Amma indi qanunlar, elementar etiket qaydaları belə nəzərə alınmır. Bu mənada nəşriyyat, redakto, tərcümə işindəki durumdan xəcalət çəkirəm. İnsanları işlədir və onların pulunu ya vermirlər, ya da qəpik-quruş verirlər. Hələ minnət də qoyurlar. Hesab edirəm ki, qanunlar çərçivəsində bu biabırçı duruma son qoyulmalıdır".

### HƏR TƏRƏFİN ÖZ MARAĞI VAR

Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu bildirdi ki, AYB-nin nəşriyyat-müəllif münaqişələrinin həlli istiqamətində arbitr rolunda çıxış etmək hüququ yoxdur: "Bunun üçün mexanizm də yoxdur. Ən bəsit halda hər hansı naşir və ya tərcüməçi quruma tövsiyə xarakterli rəy almaq üçün müraciət edə bilər. Amma elə bir presedent yaranarsa, nə naşirlərin, nə də tərcüməçilərin şikayətini həll edə bilərik". S.Babullaoğlu bu cür şikayətlərin bundan sonra da olacağını düşünür: "İşbirliyi zamanı naşirlər tərcüməçilərlə müqavilə bağlayarkən kitab bazarının reallıqlarından çıxış edib təkliflər verirlər. Sınaqdan çıxmış, özünə güvənən tərcüməçilər də yüksək qonorar istəyirlər. Bu mənada ortaq məxrəcə gəlmək çətindir. Naşir işverən kimi daha az məsrəfə nəyisə əldə etməyə çalışacaq, tərcüməçi isə daha çox almağı arzu edəcək". S.Babullaoğlu hesab edir ki, məsələnin həllində Avropa, Orta Asiya ölkələrinin və ya qonşu Rusiya və Gürcüstanın təcrübəsini və qiymət skalasını öyrənib analiz etməyə ehtiyac var: "Beynəlxalq standartlara baxmaq lazımdır. Tərcümənin şərtləri ilə bağlı hüquqi sənəd olmalıdır. Bu sənəd də beynəlxalq təcrübəyə söykənməlidir".



Səlim Babullaoğlu

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
6 İYUN ŞƏNBƏ 2026
www.kaspi.az

İyunun 11-dən iyulun 19-dək milyonlarla insanın qəlbi futbolun ritmi ilə döyünəcək. Bu dəfə də sevinc, göz yaşı, qəhrəmanlıq və məyusluq eyni səhnədə yer alacaq.

# TARİXİN ƏN BÖYÜK MUNDİALI

## ŞİMALİ AMERİKA ÜÇÜN CİDDİ SINAQ



Futbol dünyası növbəti böyük bayrama hazırlaşır. Planetin ən populyar idman növünün zirvə yarışı hesab edilən dünya çempionatı tarixdə ilk dəfə üç ölkənin - ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi ilə keçiriləcək. Turnir yalnız təşkilatçılıq baxımından deyil, formatı, iştirakçı sayı və ümumi gözləntilər baxımından da əvvəlkilərdən fərqlənir. Hər bir halda, azarkeşləri bir aydan artıq davam edəcək möhtəşəm tamaşa gözləyir.

1930-cu ildə Uruqvayda keçirilən ilk dünya çempionatında cəmi 13 komanda iştirak etmişdi. 96 il sonra isə bu rəqəm 48-ə yüksəlir. FIFA-nın qərarına əsasən, mundialda 12 qrup olacaq və ümumilikdə 104 oyun keçiriləcək. Bu, əvvəlki turnirlərlə müqayisədə 40 əlavə matç deməkdir. Turnirin müddəti də uzanıb və futbol bayramı bir aydan artıq davam edəcək.

### DAHA ÇOX ÖLKƏ MUNDİAL HƏYƏCANINI YAŞAYACAQ

FIFA bu addımı futbolun qloballaşması ilə əsaslandırır. Daha çox ölkə mundial həyəcanını yaşayacaq, yeni bazarlar yaranacaq, futbolun inkişafı sürətlənəcək. Yeni format xüsusilə Afrika, Asiya və Şimali Amerika təmsilçilərinin sayının artmasına səbəb olub. Bu isə o deməkdir ki, indiyədək yalnız televiziyadan izlədikləri mundial atmosferini Özbəkistan, Kurasau kimi bir çox ölkə ilk dəfə meydanda hiss edəcək. Tənqidçilər isə hesab edirlər ki, iştirakçı sayının artırılması bəzi oyunların keyfiyyətinə mənfi təsir göstərə bilər. Xüsusilə, qrup mərhələsinin dünya çempionatı səviyyəsinə uyğun olmayacağı bildirilir. Hər halda, yeni formatın uğurlu olub-olmadığını yalnız turnir başa çatdıqdan sonra qiymətləndirmək mümkün olacaq.

ABŞ, Kanada və Meksika tarixdə ilk dəfə birlikdə dünya çempionatına ev sahibliyi edəcəklər. Turnirin 16 şəhərdə keçirilməsi planlaşdırılır. Açılış oyunu əfsanəvi "Azteka" stadionunda baş tutacaq, final isə Nyu-Cersi ştatındakı "MetLife"da keçiriləcək.

Turnir tarixdə ən böyük logistika sınaqlarından biri olacaq. Şəhərlər arasındakı məsafələr min kilometrlərlə ölçülür. Məsələn, Vankuverlə Mayami arasında təxminən 4500 kilometrlik məsafə var. Bu isə həm komandalar, həm azarkeşlər, həm də media nümayəndələri üçün ciddi planlaşdırma tələb edəcək. FIFA məhz bu səbəbdən qrupları regional prinsiplə formalaşdırmağa çalışıb ki, iştirakçılar mümkün qədər az səyahət etsinlər. Buna baxmayaraq, uzun uçuşlar, fərqli saat qurşaqları və müxtəlif iqlim şəraiti turnirin görünməyən, lakin nəticələrə təsir edə biləcək amillərindən biri olacaq.

Bu mundial həm də Şimali Amerika futbolunun inkişaf səviyyəsinin göstəricisinə çevriləcək. Xüsusilə, ABŞ son illərdə futbola böyük investisiyalar yatırıb. Lionel Messi və bir çox digər ulduzların MLS-ə gəlişi liqaya marağı daha da artırıb, stadionlara tamaşaçı axınını gücləndirib. Dünya çempionatı bu inkişaf prosesinin ən böyük vitrini olacaq.

Meksika üçün turnir xüsusi əhəmiyyət daşıyır. Ölkə tarixdə üçüncü dəfə dünya çempionatına ev sahibliyi edəcək və bu göstərici ilə rekord müəyyənləşdirəcək. Futbolun ölkədəki populyarlığını nəzərə alsaq, mundialın ən coşqulu atmosferlərindən birinin məhz Meksika şəhərlərində yaşanacağı gözlənilir. Kanada isə ilk dəfə belə böyük futbol hadisəsinin mərkəzinə çevriləcək.

### ARGENTİNA TAXTINI QORUYA BİLƏCƏKMİ?

2022-ci ildə Qətərdə keçirilən dünya çempionatında Argentina futbolun zirvəsinə yüksəldi. Lionel Messi, nəhayət, çatışmayan kuboku qazandı. İndi isə argentinalılar uğurun təsadüfi olmadığını göstərməyə çalışacaqlar.

Tarix göstərir ki, dünya çempionu titulunu qorumaq son dərəcə çətindir. Sonuncu dəfə bunu 1962-ci ildə Braziliya bacarıb. Argentina yığmasında Messi yenə iş başındadır. O, karyerasında 6-cı mundialında iştirak edəcək. Düzdür, Messi 4 il öncəki deyil, lakin "gümüşülər" də tamamilə ondan asılı görünmürlər. Son illərdə formalaşan kollektiv dünya futbolunun ən sabit və xarakterli komandalarından biridir. Dünya çempionluğu və Amerika Kuboku zəfərləri argentinalı futbolçulara əlavə özünəinam qazandırıb. Buna görə də Cənubi Amerika təmsilçisinin yenidən final uğrunda mübarizə aparacağı gözlənilir.

## BRAZİLİYALILARIN ÜMİDLƏRİ YENİ BAŞ MƏŞQÇİ KARLO ANÇELOTTİYƏ BAĞLANIB

Dünya çempionatları barədə danışarkən Braziliyanı ayrıca qeyd etməmək mümkün deyil. Beşqat dünya çempionu sonuncu dəfə 2002-ci ildə kuboku başı üzərinə qaldırıb. O vaxtdan bəri bir neçə nəsil dəyişsə də, nəticə ürəkaçan olmayıb.

Bu dəfə braziliyalıların ümidləri yeni baş məşqçi Karlo Ançelottiyə bağlanıb. Təcrübəli mütəxəssisin üzərində böyük təzyiq var. Çünki Braziliyada dünya çempionluğundan başqa nəticə uğur hesab edilmir. Vinisius Junior, Endrik, Rafinya kimi futbolçuların mövcudluğu sambanın vətəninə yenidən ümid verir. Eyni zamanda, Neymarın mundialdakı mümkün son çıxışı da turnirin ən maraqlı süjetlərindən biri olacaq.

### TÜRKİYƏ SÜRPRİZ EDƏ BİLƏCƏK?

Türkiyə yığmasından da bəhs etməyə dəyər. 24 il sonra "ay-ulduzlu" yığma yenidən mundialda iştirak edəcək. Son illərdə formalaşan gənc və istedadlı nəsil azarkeşlərdə böyük ümid yaradıb. Arda Güler, Kenan Yıldız, Orkun Kökçü kimi futbolçular Vinçentso Montelanın rəhbərliyi altında artıq Avropa çempionatında potensialını nümayiş etdirib. Türkiyə futbol ictimaiyyəti hesab edir ki, bu nəsil 2002-ci ildə əldə olunan tarixi üçüncülükdən sonra ölkənin dünya arenasındakı ən iddialı kollektivlərindən biridir. Qardaş ölkənin turnirdə çıxış etməsi azərbaycanlı azarkeşlərin mundiala marağını bir qədər də artırır.

Tarix göstərir ki, Türkiyə millisi böyük turnirlərdə gözlənilməz nəticələr əldə etməyi bacaran komandalar sırasındadır və 2026-cı ildə də sürprizlərdən birinə çevrilə bilər.

Yekunlaşdırsaq, iyunun 11-dən iyulun 19-dək milyonlarla insanın gündəlik həyatı futbolun ritmi ilə döyünəcək. Bu dəfə də sevinc, göz yaşı, qəhrəmanlıq və məyusluq eyni səhnədə yer alacaq. Çünki dünya çempionatı sadəcə futbol turniri deyil. Bu, futbolun özüdür.